Amil Məhərrəm oğlu

# Xatirələrin işığında:
# RƏŞAD SADIQOV



BAKI-2025

Redaktoru:
**İsa İsmayılov,**
*hərbi jurnalist, ehtiyatda olan polkovnik-leytenant*

Korrektor:
**Günel Nadirova**

Üz qabığının tərtibatçısı:
**Pərvanə Bayramova**

**Amil Məhərrəm oğlu.**
**“Xatirələrin işığında: Rəşad Sadıqov”.**
Bakı, “Adiloğlu nəşriyyatı”, 2025, 192 səh.

© Amil Məhərrəm oğlu, 2025

# MÜNDƏRİCAT:

Hər kitab bir işıqdır ....................6
Tərcümeyi halı ....................9
Xidməti xasiyyətnamə ....................12
“Rəşad mənim qürurumdur” ....................13
Rəşadın ruhu şaddır ....................16
“Narahat olmayın” ....................20
"Diqqətsiz uşaq təsbit edildi" ....................24
“Bacıoğlu” ....................30
“Səmimi, cəsur, intizamlı” ....................34
“Nümunəvi zabit” ....................36
“Şanslı idim” ....................37
“Komadan zirvəyə” ....................39
“Hidayəddin” ....................42
Bir şəklin tarixçəsi ....................45
Zəhmət olmasa ....................47
Gözlənilməz komanda, heyrət doğuran reaksiya ....................49
Ballıqaya kəndində acı gün ....................51
Baharın qış günü ....................52
Müqəddəs zirvədə tamamlanan ömür! ....................56
36 kvadratdan böyük səmimiyyət ....................60
Laçın şəhəri, 2 nömrəli orta məktəb ....................62
“Çujoy” ....................64
Təsadüf olmayan təsadüf ....................65
XATİRƏLƏR ....................67
Rəşadət ordenli Rəşad xatirələrdə ....................69
Rəşad Sadıqovun əziz Xatirəsinə! ....................74
Ermənistan tərəfindən hərbi işğala məruz qalmış Azərbaycan əraziləri ....................76
Düşmən işğalından azad olunmuş şəhər, qəsəbə və kəndlərimizin siyahısı ....................77
Vətənə can, xalqa fəxarət (fotolar) ....................82

“Biz azadıq, biz müstəqilik, biz sərbəstik. Biz heç kəsdən asılı deyilik. Biz özümüz öz taleyimizin sahibiyik. Bilirsiz? Bunun üçün, yalnız bunun üçün aylarla, illərlə əziyyət çəkmək olar; illərlə ac qalmaq olar – məhz bunun üçün!

Əsrlər boyu, bizim ulu babalarımızdan indiyə qədər, Azərbaycanın mütəfəkkir insanları milli azadlıq, müstəqillik arzusu ilə yaşamışlar; milli azadlıq və müstəqillik üçün mübarizə aparmışlar, vuruşmuşlar, amma buna nail ola bilməmişlər. Biz buna nail olmuşuq. Və bilin ki, bunu indi əlimizdə saxlamaq, bunu qorumaq hər bir insanın canından da onun üçün artıqdır.

Mənim üçün – bunu bilin, mən sizə deyirəm, öz həyatımdan, öz canımdan artıq – Azərbaycanın müstəqilliyini qorumaq, onu saxlamaq, onu əbədi etməkdir.

Ona da əmin ola bilərsiniz ki, Azərbaycanın dövlətinin, Azərbaycan prezidentinin apardığı siyasət və həyata keçirdiyi tədbirlər Azərbaycanın dövlət müstəqilliyini günü gündən möhkəmləndirir və günü gündən yüksəkliklərə qaldırır.

Və bilin – mən Azərbaycanın dövlət başçısı kimi deyirəm: Bundan sonra Azərbaycan heç kəsdən asılı olmayacaq, heç kəsin vassalı olmayacaq, ancaq özü öz taleyini həll edəcək və gələcəyini həll edəcək, müstəqil, sərbəst olacaqdır”.

*Azərbaycan xalqının Ümummilli Lideri*
**Heydər Əliyev**

"Bunu da hər kəs bilsin, bu 44 gün ərzində əldə edilmiş Qələbə bizim hərbçilərimizin peşəkarlığı, qəhrəmanlığı hesabına qazanılıb".

**İham Əliyev**
***Silahlı Qüvvələrin Ali Baş Komandanı,***
***Azərbaycan Respublikasının Prezidenti***

# Ön söz əvəzi
## və yaxud
# Şəhidlik əbədilikdir

## Hər kitab bir işıqdır

İşıqlı fikirlərin kitabı düşüncələrin işığına dönür, fəlsəfi mahiyyətlərə yaşam verir, ayların, illərin ahənrübası kimi bu gündən sabahlara söz körpüsüdür. Söz də tarixdir, bu baxımdan, hər kitab bir tarixdir. Rəşad Sadıqov haqqında qələmə alınan "Xatirələrin işığında" kitabının da mahiyyətində işıq var: xalqın taleyindən keçən şəhidlik həm qurum kimi xalqın, xalqın formalaşdırdığı qurum kimi dövlətin var olma fəlsəfəsinin tezislərindən biridir. "Xatirələrin işığında" kitabı şəhid Rəşad Sadıqova həsr olunub. Ehtiram, sevgi kimi oxunur, xatirələrin işığında oxunur.

Kitaba daxil edilən xatirələr bir insan ömrü haqqında (bir zabitin döyüş yolu haqqında) qəhər qarışıq qürurdu, bir duyum qədəriycə qürrədi, bir ürək tutumuyca qəhərdi, könül qübarıdı...

İndiki H.Əliyev adına Hərbi İnstitutun məzunu idi Rəşad. Müxtəlif vəzifələrdə xidmət etmişdi. Sevərək seçdiyi, seçib yiyələndiyi hərbçi peşəsində böyük məsuliyyətlə xidmət edirdi. Müəllif (Amil Məhərrəmoğlu) peşəkar zabitin hərbi xidmətini Ali Baş Komandanın əmri ilə nə vaxtsa başlayacaq döyüşlərə zəmin, başlanğıc kimi təqdim edib. Duyursan ki, hiss edirsən ki, bu xidmət onun xarakterinin formalaşmasında bir mərhələ olub. O "nə vaxt" 2020-ci il sentyabrın 27-si olacaqmış. Onda polkovnik-leytenant Rəşad Sadıqov hərbi hissə komandirinin müavini vəzifəsində xidmət edirdi.

İkinci Qarabağ müharibəsi başlamışdı. Polkovnik-leytenant Rəşad Sadıqovun xidmət etdiyi hərbi hissə də döyüşürdü. Onun və döyüşçü yoldaşlarının döyüşləri - döyüş yolu xatirələr formatında təqdim edildiyindən "Xatirələrin işığında" kitabı könüllərin söz işığı kimi oxunur. "Xatirələrin işığında" bədii əsər deyil, tarixi əsərdi, tarixi əsər kimi oxunur. Kitab həm də gerçəkliyin bədii əksi kimi də diqqəti çəkir...

Kitabda Rəşadın həyat yoldaşı Günay Hüseynovanın xatırlamasını - Rəşadın müharibə başlayan gün dediklərini "Xatirələrin işığında" kitabının leytmotivi bilirəm. Rəşad həmin gün həyat yoldaşına deyib ki, 13 yaşım olanda xatirələrini qoyub çıxdığım Laçını da işğaldan azad edəcəyik. Buna and içmişəm. Mən Vətənimin qurtuluş döyüşünə gedirəm, andımın döyüşünə gedirəm.

Rəşadın qardaşı Səbuhinin bir xatırlaması zabit ömrünə, döyüşçü ömrünə heyrətamiz bir ehtiram kimi oxunacaq. Döyüşçünün döyüş yolunun son saatları, dəqiqələri, anları həmişə duyğusallıqla yada düşür. Səbuhi Rəşadla son əlaqəsini qəhərlə xatırlayır, müəllif qəhər çalarlı bu xatırlamanı qəhərlə də təqdim edib.

Rəşad döyüşə azca ara verəndə döyüşçülərdən birinə bir parça kağız verir ki, onda yazdıqlarını evlərinə göndərsin. Bunlar Rəşadın son kəlmələri olub: "Güləbirddəyik. Laçına 25 kilometr qalıb. Hər şey əladı...". Yazının ruhundan Rəşadın, Rəşadın timsalında hərbi hissənin şəxsi heyətinin döyüş əzmini, qələbə ruhunu duyursan...

"Xatirələrin işığında" kitabı həm də xatirə - söz vasitəsilə tanıtma missiyasıdı və yaradıcılıq baxımından təqdir ediləndir. "Xatirələrin işığında" deyən müəllif söz-xatirə vasitəsilə bir hərbçi ömrünün obrazını yaradıb. Peşəkarlıq baxımından, azərbaycançılıq baxımından, kamillik baxımından bu ömür xatirələrdə də yaşayacaq, tarixdə də. Bu kitab bu tezisin kitabıdır"...

"O, şəxsi heyətin mənəvi-psixoloji vəziyyətini qoruyub saxlayaraq yorulmadan və fədakarlıqla öz vəzifəsini yerinə yetirirdi. Onun ruh yüksəkliyi və dözümü şəxsi heyət üçün böyük dayağa çevrildi" (polkovnik Anar Eyvazov), "Bala Soltanlı istiqamətində hücum edərkən yaralandım, məni döyüşün içindən Rəşad çıxartdı..." (polkovnik Şahin Qəhrəmanov), "Döyüşdən əvvəl döyüşün məsuliyyətini, mahiyyətini izah etdi, bizə ruh yüksəkliyi verdi..." (ehtiyatda olan mayor Azər Əzizov), "Bəlkə də Rəşad və yoldaşları vaxtında çatmasa, həmin gün evimiz kimi, ömrümüz, taleyimiz də yanıb kül ola bilərdi..." (Sərdar Ağayev - Ballıqaya kənd sakini), "O tək bizim həyatımızı qurtarmadı, həm də bizə bir kişilik, bir mərdlik, bir qəhrəmanlıq dərsi vermiş oldu..." (mayor Niyaməddin Məmmədov). "Xatirələrin işığında" kitabı müəllifin təqdim etdiyi belə gerçək (və səmimi!) fikirlərin kitabıdı; səmimiyyətlə xatırlanıb, səmimiyyətlə hazırlanıb, səmimiyyətlə oxunacaq.

"Xatirələrin işığında" publisistik mahiyyətli tarixi əsərdir.

Azərbaycan Ordusunun qazandığı tarixi Zəfərin zərrələrini bu kitab da yaşadacaq.

Müəllif bu şəhidliyi Vətənə sevgisinin səyyarəsi kimi təqdim edib və bu təqdimat kitabın fəlsəfi qayəsini həm yaddaşlara, həm də tarixə diqtə edir: Şəhidlik əbədilikdir...

Kitablar isə şəhidlərin bu dünyadakı ömürlərinə işıq salan çıraqlardır!

**Rəşid Faxralı,**
*Əməkdar jurnalist, şair-publisist*

# Tərcümeyi halı

## Sadıqov Rəşad Xanlar oğlu

Sadıqov Rəşad Xanlar oğlu, 1978-ci il oktyabrın 11-də Laçın şəhərində anadan olub. Azərbaycanlıdır.

1985-ci ildə Laçın şəhər 2 nömrəli orta məktəbinə daxil olub. 1992-ci ilə qədər həmin məktəbdə təhsil alıb. Daha sonra təhsilinə 1992-ci ildən 1995-ci ilədək Şəmkir şəhər Ə.Cavad adına 4 nömrəli orta məktəbdə davam edib. 18 may 1992-ci ildən Laçın rayonundan məcburi köçkün kimi çıxaraq ailəsi ilə birlikdə Şəmkir rayonunda yerləşən "Təcili tibbi yardım" binasında məskunlaşıblar.

1995-ci ildə Bakı Ali Hərbi Komandanlıq Məktəbinə daxil olub və 1999-cu ildə həmin məktəbi motoatıcı taqım komandiri ixtisası üzrə bitirib. 1999-cu ilin iyul ayından 2002-ci ilin may ayınadək "N" hərbi hissəsinin motoatıcı taqım komandiri, 2002-ci ilin may ayından 2002-ci ilin oktyabr ayınadək motoatıcı bölük komandiri, 2002-ci ilin oktyabr ayından 2004-cü ilin iyul ayınadək C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialında taqım komandiri - tərbiyəçi, 2004-cü ilin iyul ayından 2013-cü ilin aprel ayınadək Heydər Əliyev adına Hərbi Liseyin taqım komandiri - müəllim köməkçisi, 2013-cü ilin aprel ayından 2014-cü ilin fevral ayınadək Heydər Əliyev adına Hərbi Liseyin şəxsi heyətlə iş üzrə bölmənin baş təlimatçısı - psixoloq, 2014-cü ilin fevral ayından 2014-cü ilin iyul ayınadək Heydər Əliyev adına Hərbi Liseyin Tədris şöbəsinin plan-proqram bölməsinin rəisi, 2014-cü ilin iyul ayından Əlahiddə Ümumqoşun Orduda Təşkilat-Səfərbərlik şöbəsi rəisinin (səfərbərlik üzrə) baş köməkçisi vəzifəsində xidmət edib. 2019-cu ilin mart ayından "N" hərbi hissəsinin hərbi

hissə komandirinin şəxsi heyətlə iş üzrə müavini vəzifəsində, 2020-ci ilin yanvarından "N" hərbi hissəsinin hərbi hissə komandirinin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə müavini vəzifəsində xidmət edib.

İkinci Qarabağ müharibəsində Cəbrayıl, Qubadlı, Laçın rayonlarının işğaldan azad edilməsində iştirak edib, 29.10.2020-ci il tarixində Laçın rayonunun azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmanlıqlar göstərərək şəhid olub. 30.10.2020-ci il tarixində Şəmkir rayonunun Çaparlı kənd qəbiristanlığında dəfn olunub.

Ailəli idi, 1 oğlu və 1 qızı Vətənə yadigar qalıb.

**Təltifləri:**

1. "Rəşadət" ordeni;
2. "Hərbi xidmətdə fərqlənməyə görə" I dərəcəli medalı;
3. "Hərbi xidmətdə fərqlənməyə görə" III dərəcəli medalı;
4. "Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin 10 illiyi" yubiley medalı;
5. "Qüsursuz xidmətə görə" III dərəcə medalı;
6. "Qüsursuz xidmətə görə" II dərəcə medalı;
7. "Qüsursuz xidmətə görə" I dərəcə medalı;
8. "Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı;
9. "Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı;
10. "Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin 100 illiyi" yubiley medalı;
11. "Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı" medalı;

12. "Vətən uğrunda" medalı;
13. "Hərbi xidmətlərə görə" medalı;
14. "Cəbrayılın azad olunmasına görə" medalı;
15. "Qubadlının azad olunmasına görə" medalı;
16. "Laçının azad olunmasına görə" medalı;
17. "Fövqəladə halların nəticələrini aradan qaldıran iştirakçı" medalı.

Bu onun tərcümeyi-halının bir hissəsidir. Əsl tərcümeyi-halını şərəfli xidmət yolu ilə yazıb.

## XİDMƏTİ XASİYYƏTNAMƏ

Verilir 11.10.1978-ci il tarixdə Laçın şəhərində anadan olmuş, azərbaycanlı, ali hərbi təhsilli, evli, əvvəllər məhkum olunmamış, Azərbaycan Ordusunda 1995-ci ildən həqiqi hərbi xidmətdə olan 000 hərbi hissə komandirinin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə müavini vəzifəsində xidmət etmiş polkovnik-leytenant Sadıqov Rəşad Xanlar oğluna

Polkovnik-leytenant Sadıqov Rəşad Xanlar oğlu "N" hərbi hissəsi komandirinin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə müavini – bölmə rəisi vəzifəsində xidmət etdiyi müddət ərzində özünü intizamlı, bacarıqlı və işgüzar hərbi qulluqçu kimi göstərib.

Bir bölmə rəisi olaraq tabeliyində xidmət edən zabit və digər hərbi qulluqçuların vəzifələrinin icrasına nəzarət edir, onların peşə vərdişlərinə sahiblənməkdə, üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməkdə dəstək olub.

Verilən əmr və göstərişlərin vaxtında və dəqiq yerinə yetirilməsi üçün bütün bilik və bacarıqlarını sərf edirdi. Peşə hazırlığı və biliyi qarşısına qoyulan tapşırıqları lazımi səviyyədə yerinə yetirməyə imkan verirdi. Nizamnamələrin tələblərini bilir və gündəlik fəaliyyətini onların tələblərinə uyğun qururdu.

Bir hərbçi olaraq vətəndaşlıq borcunu da layiqincə yerinə yetirməyi bacarırdı. Mühüm ictimai-siyasi fəaliyyətlərdə dövlətinə və xalqına sadiq davranışlar sərgiləyib.

Kollektivdə və yoldaşları arasında yüksək nüfuza malik idi. Şəxsi heyətlə ünsiyyət qurmağı bacarırdı. Özünə qarşı çox tələbkar idi. Hərbi geyim formasına və dövlət atributlarına hörmət edirdi. Dövlət sirrini qorumağı bacarırdı, fiziki və sıra hazırlığı yüksək səviyyədə idi.

Şəxsi heyətin rəğbət və sevgisini qazanaraq, davranışları ilə hər kəsə nümunə olub.

Fiziki cəhətdən sağlam, mənəvi cəhətdən saf idi.

**Fəlakət Hüseynova,**
*anası*

## "Rəşad mənim qürurumdur"

**- Rəşadın uşaqlığı necə keçib?**

- Rəşad mənim böyük oğlum idi. Uşaq vaxtından öz həmyaşıdlarından seçilirdi. Təhsili, savadı, tərbiyəsi ilə həmişə öz yaşını qabaqlayırdı.

**- Məktəb vaxtı dərsləri, müəllim və şagirdlərlə münasibəti necə idi?**

- Elmə böyük həvəsi vardı. Biz Laçın rayonunun özündə yaşayırdıq. Rəşad o vaxtı dünya və yerli ədəbiyyata böyük maraq göstərirdi, gündəlik dərslərində də əlaçı idi. Məktəb vaxtı demək olar ki, kitabxanada olan kitabların böyük əksəriyyətini oxuyub bitirmişdi. Qonaq getdiyi hər yerdə gözü təzə kitab axtarardı.

**- Necə oldu ki, hərbçi olmaq qərarına gəldi?**

- Laçında yaşayanda həkim olmağı arzu edirdi. Məktəbdə də, evdə də hər kəs bilirdi ki, Rəşad böyüyəndə həkim olacaq. Lakin bəlli hadisələr, qaçqınlıq həyatı onun da fikirlərinə ciddi təsir etdi. Bir çox qaçqın və məcburi köçkün kimi Laçından çıxandan sonra həyata baxışları dəyişdi.

**- Uşaq Rəşadla böyük Rəşadın arasında hansı fərqlər var idi?**

- Uşaq Rəşad xəyallarında həkim idi. Bəlkə də artıq həkimlik xələti geyinmiş, bir neçə insanın həyatını da xilas etmişdi. Böyük Rəşad isə hərbçi olmağı, onun uşaqlıq xəyallarını məhv edən düşməndən, Xocalının qatillərindən qisas almağı seçmişdi. Bir ana kimi Rəşad həmişə mənim gözümdə uşaq olub. Onun böyüdüyünü isə özünü maşının qabağına ataraq bir neçə kursantın

həyatını xilas edəndə anladım. Yenə də bir ana olaraq onunla həmişə maraqlanırdım. Bir gün danışmayanda, səsini eşitməyəndə sanki dünya mənə dar gəlirdi.

**- Hansı hobbiləri var idi?**

- Şahmat oynamağı sevirdi. Müxtəlif kitablar oxuyurdu. Ən çox da nağıllara marağı var idi. Kitabları oxumaqla yanaşı, onlara aid filmləri və səs yazılarını da dinləyərdi. Atasının həyətdə olan kiçik emalatxanasında raket, təyyarə kimi maraqlı şeylər düzəldərdi.

**- Bir ana kimi bu suallara cavab vermək çətindir, bilirəm. Lakin soruşmalıyam. Ölümün adı bir, səbəbi çoxdur. Onun şəhid olması sizə hansısa təskinlik verirmi?**

- Övlad dərdi böyükdür. Onu itirməyin heç bir təsəllisi yoxdur. Lakin şəhid anası olmaq da ayrıca bir zirvədir. Bu zirvəyə məni Rəşad yüksəldib. Əlbəttə, könül istərdi ki, belə şey olmayaydı.

**- Qaçqınlıq həyatından danışa bilərsinizmi?**

- Həyat yoldaşım Xanlar 1988-ci ildən 1992-ci ilin may ayına qədər Laçında döyüşlərdə iştirak edib. O vaxtı yoldaşımla tez-tez əlaqə saxlaya bilmirdik. İndiki kimi mobil telefonlar yox idi. Biz onunla birtəhər əlaqə saxlayıb hamının getdiyini, şəhərə düşən bombalardan qorxduğumuzu dedim. Gecə saat 4 idi, rəhmətlik Xanlar gəlib çatdı və bizi Beyləqana qayınatamın dostugilə gətirdi. Sözün düzü, həmin vaxtlar elə bilirdik hər şey düzələcək. Müvəqqəti gəldiyimizi, tezliklə yurdumuza, evimizə qayıdacağımızı düşünürdük. İki-üç gün orada qaldıqdan sonra Şəmkirə yola düşdük. Çünki mənim atamın evi Şəmkirdə idi və qohum-əqrəbam hamısı Şəmkirlidir. O vaxtı Şəmkir rayonunun təcili tibbi yardım məntəqəsində yerləşdik. Və məşəqqətli qaçqınlıq həyatı başladı. Laçından çıxanda Rəşadın 13 yaşı var idi, kiçik oğlumun isə 11. Biz gecəylə evimizi tərk edəndə qapısına

qıfıl da vurmamışdıq. Tövlənin qapısını da bağlı saxlamışdıq. Düşünürdük ki, qayıdacağıq. Sonralar kiçik oğlum hər yadına düşdükcə deyirdi ki, "ay ana, biz günah elədik, toyuqları tövlədə ac saxladıq". Təbii ki, bir uşaq üçün nə baş verdiyini anlamaq çətin idi.

**- Atası sağ olsaydı, ondan özümüz soruşardıq. Allah rəhmət eləsin. Atası ilə münasibətləri necə idi? Onu atasının gözündən təsvir edə bilərsinizmi?**

- Atası ilə həm oğul, həm də dost idilər. Yoldaşım özü də müharibə iştirakçısı olub. 5 ilə yaxın döyüşlərdə iştirak edib. Qaçqınlıq həyatında uşaqlar oxusun deyə hər zülmə sinə gərməyi bacardı. Rəşad bir gün arzusunu açıb bizə həkim yox, hərbçi olmaq istədiyini deyəndə mən bir az narazılıq etdim. Ana olaraq qorxmağım, narazı olmağım təbii idi. İstədim ki, fikrindən daşınsın. Qohumlarımızdan bir neçə həkim olanı var. Onları misal çəkərək fikrini yoxladım. Dedi ki, yox mən hərbçi olacam. Atası da razılaşdı. Deyə bilərəm ki, heç vaxt bizi incitməyib. Həmişə qürur duymuşuq. Atası da onunla qürur duyurdu. Sanki hərbçi olması, Laçın həsrəti ilə yaşaması onlar arasında xüsusi bağlılıq yaratmışdı. Atası ilə yaxşı yola gedirdi. İctimai-siyasi mövzularda müzakirələr edir, dünya söhbətləri edirdilər. O, leytenant olandan 20 il bizdən uzaq düşmüşdü. Arada Naxçıvana gedir, məzuniyyət vaxtları isə o bura gəlirdi. Hər gününü doya-doya, maraqla keçirərdi. Müharibə vaxtı hər gün Prezidentimizdən sevindirici xəbərlər alsaq da, atası onun üçün çox narahat olurdu. Yağış yağanda, hava bir az pis keçəndə evdə vurnuxur, get-gəl edərək "uşaqlar döyüşdədi" deyib içi-içini yeyirdi...

...Mən deyərdim ki, atası məndən şanslı çıxdı, bəlkə də. Rəşadın yoxluğuna dözə bilməyib 13 gün sonra ürəyi dayandı. Onun yanına getdi...

**Günay Hüseynova,**
*həyat yoldaşı*

# Rəşadın ruhu şaddır

**- Bizə Rəşad haqqında nə deyə bilərsiniz?**

- Rəşad mənim üzümdə sevincim, gözümdəki parıltım, dodağımdakı gülüşüm, dilimdəki həyəcanım, ürəyimdəki sevgim, bir sözlə, qadın xoşbəxtliyim və məni həyata bağlayan 2 övladımın qəhrəman atasıdır.

**- Bəs polkovnik-leytenant Rəşad Sadıqov kim idi?**

- Vətənini, xalqını, torpağını, bayrağını, bir də əynindəki formanı hər şeydən çox sevən bir zabit idi. Polkovnik-leytenant Rəşad Sadıqov onun hər kəsi heyran edən insanlığının formada təcəlli etmiş halıdır.

**- Zabit həyat yoldaşı olmaq çətindir. Bəs şəhid zabitin həyat yoldaşı olmaq haqqında nə deyə bilərsiniz?**

- Bəli, zabit yoldaşı olmaq çətin, məsuliyyətli və qürurlu bir vəzifədir. Vəzifədir dedim, ona görə ki, bir zabitin vəzifəsi onun həyatına, ailəsinə də sirayət edir. Burada zabit xanımına böyük məsuliyyət və yük düşür. Şəhid bir zabitin həyat yoldaşı olmaq ikiqat, hətta deyərdim ki, yüz dəfələrlə daha ağır və müqayisəsi olmayacaq qədər çətindir.

**- Günay xanım, ayrılıqlar bütün hallarda mütləq ki, çətindir. Bəs bu ayrılığın bir təsəllisi varmı?**

- Bəli, ayrılıqlar hamısı çətindir. Dözülməzliyi isə insanı həyata bağlayan səbəblərə bağlıdır. Əgər bizi yaşamağa vadar edən dəyərlər güclüdürsə, həsrətin ağırlığı bir o qədər azalır. Lakin onu xüsusilə qeyd etmək istəyirəm ki, həyatımıza gözəllik qatan,

xoşbəxtliyin səbəbi olan çox sevdiyimiz bir insanı vaxtsız itirməyin təsəllisi olmaz. Amma nəyisə təsəlli etmək lazım gəlirsə, bu, Rəşaddan yadigar qalan 2 övladıdır. Oğlumda onun ciddiyyətini görürəmsə, qızımda təbəssümünü görə bilirəm. Allahdan istəyim onun əmanətlərinə sahib çıxaraq layiqincə böyütmək, vaxtı çatanda yanına üzüağ, alnıaçıq getməkdir.

**- Məzuniyyətə gələndə vaxtını necə keçirirdi?**

- Ailəsi ilə vaxt keçirmək üçün məzuniyyəti gözləmirdi. Hətta işində 5 dəqiqəlik boş zaman tapan kimi uşaqları ilə vaxt keçirməyi hər şeydən üstün tutardı. Sanki bu çətin işdə yaranan yorğunluğunu onlarla zaman keçirdikcə unudurdu. Tez-tez onları hərbi hissəyə aparar, oradakı şəraitlə tanış edərdi. Uşaq tərbiyəsində hər bir detala xüsusi diqqət yetirərdi.

**- Evdə işi haqqında danışırdımı?**

- Xeyr, işin ağırlığını evə daşımazdı. Bu onun əsas xüsusiyyətlərindən biri idi.

**- Müharibə başlayanda...**

- Sentyabrın 27-si səhər saatlarında müharibənin başladığını öyrəndim və narahat olub ona zəng etdim. Mənim narahatlığımı sanki daha öncədən hiss etmişdi. Zəng zamanı təşvişlə verdiyim sualları tam sakit, əminlik və rahat edəcək şəkildə cavabladı. Özü bu anı illərlə, hətta bütün həyatı boyu gözləmişdi. Yenə də çox narahat olmayaq deyə üstüörtülü dedi. Onun dediklərini də çox yaxşı xatırlayıram.

*“Müharibə başlayır, artıq üzərimdə daşıdığım bu formanın əsl daşınılma məqsədini göstərmək və haqqı ilə daşıdığımı sübut etmək vaxtıdır. 13 yaşında hər şeyi orada qoyaraq çıxdığım yurdum, yəni, Laçınımı özüm öz əllərimlə düşməndən azad edəcəyimə daha uşaqkən and içmişdim”.*

Həyatını bilənlər onu daha yaxşı anlayar. “Leytenant” rütbəsini 1999-cu ildə aldığı üçün artıq 25 ilə yaxın idi ki, xidmət edirdi. Bütün təminatları qazanmışdı. Buna baxmayaraq, xidmətini dayandırmadı, çünki bu anı gözləyirdi, bilirdi ki, müharibə bir gün başlayacaq və o da çox sevdiyi Laçınına qovuşacaq. Və həmişəki kimi sözünü tutdu. Laçın döyüşləri zamanı ilk oraya çatan və orada iştirak edən say-seçmə insanlardan biri oldu. Dediyini etdi. Bir şeirdə deyildiyi kimi: “Torpağın bağrına cəsədiylə azadlıq tumunu əkdi”, Laçını azad etdi.

Özü o torpaqda gəzə bilməsə də, ruhu şaddır.

**- Son gününüzü necə xatırlayırsınız?**

- O anı, yəni, son doğum gününü qeyd etdiyimiz günü heç unuda bilmirəm. Həmin vaxt pandemiya ilə əlaqədar sərt karantin rejimi tətbiq edilir, üstəlik müharibə ilə əlaqədar komendant saatı tətbiq edilirdi. Bir tərəfdən də artıq bir neçə dəfə idi ki, mənfur düşmən Gəncə şəhərinə raket hücumu edir, dinc əhalini hədəf alırdı. Belə bir çətin dövrdə uzun müddət idi ki, üzünü görə bilmirdik. Həmin gün, yəni, 11 oktyabrda ad günü olduğu üçün onu evə buraxmışdılar. Adı doğum günü olsa da, heç bir məclis etmədik, təbii ki. Zatən onu görmək bizim üçün ən böyük sevinc idi, amma sən demə, bu ad günü son görüş imiş. Xidmət etdiyi hərbi hissə 12 oktyabrda döyüşlərə yollanacaqdı. Komandiri ona vaxt vermişdi ki, ad günü bəhanəsi ilə gecəni evdə keçirsin. O isə bir saata yaxın evdə qalıb getməyə hazırlaşırdı. Gözümün önündən getmir. Hər zaman şən olan bu adamın üzündə gizlətməyə çalışdığı bu durğunluq nəyin işarəsi idi?! Bu mənə çox təəccüblü gəlirdi. Marağımı gizlədə bilməyib nə baş verdiyini soruşdum. Mənə cavab olaraq heç nə demədən bir qırağa çəkildi. Uşaqlara bildirməməyə çalışdı. Səssizcə cibindən bir ovuc dolusu irili-xırdalı dəmir parçasını göstərib *“Bunların nə olduğunu bilirsənmi?”*

- deyə soruşdu. Bir şey anlamadan sual dolu baxışlarla gözümü ovucuna zilləmişdim. Sonradan bunların şəhərə düşən raketlərin qəlpələri olduğunu dedi.

Həmçinin qeyd etdi ki, xidmətdə olan əsgərlərin hərəsi bir uşaqdır. *"Onlar bizə əmanətdir. Mən onları Nihaddan fərqləndirmirəm..."* Bu vəziyyət onu çox narahat edirdi. Əsgərlərini sevir, həmişə onları qorumağa çalışırdı. İstəməsəm də, onu daha yaxşı başa düşürdüm. Çox da uzun olmayan dialoqumuzda mənə hər şeyi başa sala bilmişdi. Əslində, həmin gün daha çox qala bilərdi evdə, lakin o hərbi hissəyə tələsirdi...

**Səbuhi Sadıqov,**
*qardaşı*

# "Narahat olmayın"

- **Səbuhi, qardaşınız haqqında nə deyə bilərsiniz?**

- Qardaşım haqqında çox söz demək olar. Onun haqqında danışmaq asan deyil. Çox yüksək nizama sahib idi. Məndən 2 yaş böyük olub. 2 yaş olmasına baxmayaraq, mən onu yeniyetməlik dövründən, gənc yaşımızdan bu günə kimi həmişə ağsaqqalım kimi görmüşəm.

- **Uşaqlığınızda ən yadda qalan hadisələrdən danışa bilərsiniz?**

- Doğru xatırlayıramsa, mənim 8, onun isə 10 yaşı olardı. İki əmimiz oğluyla birlikdə Həkəri çayının qırağına düşmüşdük. Həmin vaxt orada kanat yerləşirdi. O kanat vasitəsilə çayın sahillərinə keçid etmək olurdu. Biz uşaqlıq həvəsilə özbaşımıza kanata minib əylənmək istəyirdik. Qismətdən kanat çayın üstünə çatdıqda dayandı. "Troslara" keçirilən çarxlardan biri çıxmışdı. Biz məcburi əlimizlə özümüzü dartmalı, kanatı da, özümüzü də sahilə çıxarmalı idik. Hamımızın əli suluq bağlamış, qollarımız da gücdən düşmüşdü. Həmin vaxt qaqam ruhdan düşmədi, özüylə bərabər 4 nəfəri də çəkərək sahilə çıxardı. Onda gördüm ki, əllərinin içi kəsik-kəsikdir və qan axır. Barmaqlarının arası suluq bağlayıb, qabığı soyulmuşdu... Bunu daha uzun-uzun anlada bilərəm. Məqsədim budur ki, iradəsi və qətiyyəti ilə bizi orada qalmaqdan xilas etdi. Həmin vaxt düşünə bilməzdim ki, bu hərəkət gələcək qəhrəmanlığının bir işarəsidir.

- **Onunla hansı oxşar və fərqli cəhətləriniz var?**

- Oxşar cəhətlərimiz o idi ki, ikimiz də enerjili idik. Şahmat oynamağı sevirdik. Mənə şahmatı da o öyrətmişdi. Maraqlarımız fərqli olsa da, ikimiz də həvəsli idik. O məktəbdə əlaçı idi. Məni də hər yerdə Rəşadın qardaşı olaraq tanıyırdılar - elə indiki kimi... Qaçqınlıq dövründə Şəmkir rayonunda "Təcili tibbi yardım" stansiyasının binasında yerləşmişdik. Vəziyyətimiz çətin idi. Buna baxmayaraq, o, mütaliədən qalmırdı. Hər gün yalvarırdım ki, "qaqa, işığı söndür yataq".

Deyə bilərəm ki, dövrünə görə fərqli uşaq idi. Mən saqqızdan çıxan maşın şəkillərini yığırdım, o isə nağıl kitabları toplayırdı. Mən velosiped sürürdüm, o kibrit barıtından partlayıcı düzəldirdi. Əlinə keçən hansısa texniki hissələrdən raket, təyyarə hazırlayardı. Uçurdardı, ağaca dəyib yerə düşər, yaxud ilişib qalardı budaqda. Əslində, qəribə uşaqlığı vardı. İndi insan keçmişə baxanda ardıcıllığı toplayır və heç nəyin təsadüf olmadığını anlayır.

- **Döyüş vaxtı əlaqə saxlaya bilirdinizmi?**

- İşi ilə bağlı telefonda çox da danışmazdı. Bir neçə sözü vardı. "*Hər şey yaxşıdır, problem yoxdur. Narahat olmayın*". 44 günlük Vətən müharibəsində ordumuz sürətlə irəli getdiyi üçün mütəmadi yer dəyişdirirdi. Bu səbəbdən irəlilədikcə mobil şəbəkə itir, nəticədə tez-tez əlaqə saxlaya bilmirdik. Son əlaqəmiz isə dolayısı ilə köməkçisinə verdiyi kağız parçasıyla olmuşdu. Orada "Güləbirddəyik. Laçına 25 km. qalıb. Hər şey əladır. Qardaşıma de Z.O." - kimi qısa cümlələr qeyd etmişdi. Həmin kağızın şəkli bizə çatanda uşaq kimi sevinmişdik.

- **İnsanlara qarşı necə davranırdı?**

- Səmimi və dürüst idi. Hətta o qədər səmimi və dürüst idi ki, ailəsi ilə digərləri arasında fərq qoymurdu. Onun dürüstlüyünü

uşaq vaxtı şahmat oynadığımız zamanlardan hiss edirdim. Uduzan, fiqurları düzməli idi. Mən uduzanda cığallıq edirdim. Başımın üstündə durub mənə məcburən düzdürərdi. Özünə qarşı da bu cür tələbkar idi.

- **Zabit həyatından nə deyə bilərsiniz?**

- Şəhid olduqdan sonra haqqında o qədər gözəl sözlər, əhvalatlar eşitdik ki, sən demə, mən qardaşımı yetərincə tanımamışam. Yəni, o, işindən danışmır, digər əhvalatları isə təvazökarlıqdan danışmazdı. Biz də nə eşitmişiksə, kənar insanların dilindən duymuşuq.

- **Danılmaz faktdır ki, liseydə xidmət edərkən kursantların həyatını xilas edib, idarəetməni itirən avtomobilin onları vurmasından qoruyub. Bu haqda söhbət edə bilərsinizmi?**

- Bəli, anamla hər gün bir dəqiqəlik də olsa əlaqə yaradırdı. Atamı, məni, əmimi isə növbəylə axtarırdı. Həmin vaxtlar mobil telefonlar da geniş yayılmamışdı. Artıq 3 gün idi ki, anamla əlaqə saxlamırdı. Anam nömrəsini yığanda başqa dostu götürüb demişdi ki, Rəşadın telefonu məndədir. Mən də evə gəlmişəm. Qayıdanda sizi danışdıraram. Anam inanmayıb, təkid edəndə ki, məni oğlumla danışdırın, onda baş vermiş faciədən xəbər tutduq. Qaqam böyük qəhrəmanlıq edib bir neçə kursantın həyatını xilas etmişdi. Ağır kəllə-beyin travması almışdı. Məndə olan məlumata görə, həkimi Bakıdan gətirmişdilər ki, əməliyyat etsin. Həmin vaxt sərnişin təyyarəsi olmadığı üçün həmin neyrocərrah Çingiz doktor yük təyyarəsi ilə Bakıdan Naxçıvana gəlmişdi. Biz o vaxtlar bu hadisədən xəbərsiz idik. Əməliyyat ağır keçmişdi. Həkim yaşamağına çox da ümidli deyildi. Ailəmiz isə bu hadisədən bir müddət sonra xəbər tutdu. Artıq o, reanimasiyadan çıxmış, özünə gəlməyə başlamışdı. Həmin vaxt bütün bu işləri Sadıx əmim və Heydər Əliyev adına Hərbi Liseyin rəhbərliyi öz üzərinə götürmüşdü.

Cibində hər zaman əmimin və mənim nömrəm yazılı olardı. Elə həmin vərəqdən əmimə zəng edib məlumat vermişdilər.

Sonradan Hərbi Həkim komissiyası ona xidmətə yararlılıq vermək istəmirdi. Aldığı travma ağır olduğuna görə ehtiyata buraxılmalı idi. Lakin o, çox xahiş edərək xidmətinə davam etməyi istədi. Elə də oldu...

**Nihad Sadıqov,**
*oğlu*

## "Diqqətsiz uşaq təsbit edildi"

- **Nihad, neçənci sinifdə oxuyursan?**

- 11-ci sinifdə.

- **Yəqin ki, ali məktəbə hazırlaşırsan. Hansı ixtisası seçmisən?**

- 3-cü qrupa hazırlaşıram. İnşallah, hüquqşünas olmağı arzulayıram və bu istiqamətdə çalışıram.

- **Niyə məhz hüquqşünas?**

- Düşünürəm ki, bu sahədə daha faydalı ola bilərəm. Həm də cəmiyyətin rifahı hüquqi olaraq tənzimlənməli, insanların həyatı ədalətli qaydada yönəldilməlidir.

- **Hobbilərin varmı?**

- Azyaşlı vaxtlarımdan nəyisə araşdırmağı, bir şeyi sıfırdan başlayaraq inşa etməyi sevmişəm. Vahid bir hobbim yoxdur. Ancaq nəyisə araşdıraraq nəticə əldə etmək mənə xoş gəlir. Əsasən də, canlılar aləmi, təbiət, heyvanlar və s. bu qəbildən olan şeylər. Ümumiyyətlə, gələcəyə ümidlə baxıram.

- **Hərbçi övladı olmağını necə ifadə edərdin?**

- Hərbçi övladı olmağı belə ifadə edə bilərəm. Sanki bir növ kiçik hərbçi kimi yetişmək, hərb həyatının çətinliklərini və məsuliyyətini uyğun olaraq hiss etmək və dərk etmək deməkdir.

- **Atanın zabitlik həyatını xatırlayırsan?**

- Əlbəttə. Mənimlə əlaqəli çox şeyi xatırlayıram. İstər Naxçıvanda, istərsə də burada xidmət edəndə bizi hərbi hissəyə apa-

rar, orada əsgərlərlə ünsiyyətdə olardıq. Həmin gün bizim üçün maraqlı keçərdi. Hərbi hissə ilə tanış olardıq. Atamın xidmət yoldaşları ilə söhbət edər, otağında olan müxtəlif əşyalara maraq göstərərdik.

- **Hərbi biliklərindən sizə də öyrədərdimi?**

- Bəli, öyrədərdi. Maraqlı gəlirdi, lakin o vaxtı dediklərini, demək istədiklərini indiki kimi anlamırdım. Zaman keçdikcə bizə başa salmağa çalışdığı mövzuların heç birinin təsadüfi olmadığını anlayıram. O, bunu tək hərbidə deyil, həm də müxtəlif sahələrdə etməyə çalışırdı. Uğursuz cəhdlərimin hamısını nəticə əldə edənə qədər təkrarladardı mənə.

- **5 il öncəyə qədər atanı sən, qohumların xidmət yoldaşları tanıyırdı. İndi onu bütün ölkə tanıyır. Bu necə hissdir?**

- Müsahibələrin birində dediyim kimi, o artıq sadəcə mənim yox, bütün Azərbaycanın gözündə qəhrəmandır. Bu çətin olsa da, qürurverici hissdir.

- **Birlikdə necə vaxt keçirirdiniz?**

- Daha çox bizi maraqlandıran şeylərə vaxt ayırardı. Son elmi kəşflər, insani yeniliklər həmişə bizim maraq sahəmiz olub. Evdə stolüstü oyunlar oynayardıq. Atamın sayəsində dama, şahmat kimi oyunları öyrənə bilmişəm.

Bir dəfə bacımla hərbi hissəyə getmək istəyirdik. Atam bizi qapıda qarşıladı. Üstümüzdə “smartfon” tipli telefon olduğunu qapıdakı növbətçilər də bilirdi. Lakin tərəddüd edir, telefonları istəməyə çəkinirdilər. Atam bacımla mənim telefonlarımızı alıb NBM növbətçisinə təhvil verdi. *“İçəri fotokamerası olan telefonla girmək olmaz”* – deyib bizi qapıdan keçirdi. Onun bu hərəkəti mənə çox xoş gəlmişdi. Həqiqətən də, atamın bu cür davranışları

məndə qürur və ədalət hisslərini formalaşdırırdı. Biz hərbi hissəyə gedəndə əliboş getmirdik. Müxtəlif şirniyyatlar alıb aparardıq. Atam o şirniyyatları yanında olan əsgərlərlə bölüşürdü. Beləcə, bizə paylaşmağı, bölüşməyi öyrədirdi.

- **Onunla yadında qalan ən şirin xatirələrindən bizimlə paylaşa bilərsən?**

- Birlikdə dərs edərdik. O zaman hələ uşaq idim. Mənim məktəbdə öyrəndiyim mövzuları atam illər öncə öyrənməyinə baxmayaraq, hər birini yaxşı bilər və tam izahat verməyi bacarardı. Mən isə hər zaman anlamadığım, çətinlik çəkdiyim bütün sualları atama verərdim. O isə səbirlə dinləyər və başa salardı. İzahatından sonra özündən bir tapşırıq verərdi. Mən tələskən və səbirsiz idim. Ona görə səhvlərə çox yol verərdim. O isə bu səhvləri öncədən hiss edər, amma deməzdi. Zarafat halına gətirmişdik. Hər elə hal təkrarlananda "Diqqətsiz uşaq təsbit edildi" - deyərdi. Mənim kompüter proqramları və rəqəmsal sistemlərdə gördüyüm bu xəbərdarlığı həyatda eşitmək ona və mənə çox şirin gələrdi. Mənə səhv etmisən demək yerinə səhvlərimi belə zarafat yolu ilə göstərərdi.

Diqqətsizliyimə və tənbəlliyimə baxmayaraq, dərslərimdə orta nəticədən yuxarı qiymətlər alardım. Ona görə mənə "professor" deyərdi. Hələ 3-cü sinifdə oxuyurdum, mənə ensiklopediya almışdı. Hər gün bir səhifə oxuyub birlikdə müzakirə və təhlil edərdik.

- **Nihad atandan öyrəndiyin ən önəmli xüsusiyyətlər hansılardır?**

- Bu, çox yaxşı sualdır. Atamdan öyrəndiyim üç ən mühüm xüsusiyyəti demək istərdim.

Onlardan birincisi humanistlikdir. O, çox insansevər, mərhəmətli idi. Pis, yaxud yaxşı fərq etməz, yaxşılıq edərdi. Onun

üçün insan həyatı hər şeydən öndə gəlirdi. Bunu həyatda bir neçə dəfə sübut etmişdi. Bəzən mən ona "yaxşılığının əvəzini qaytarmayacaqlar" - deyəndə, o "mən yenə də yaxşılıq edəcəyəm" - deyib gülümsəyərdi.

Növbəti möhtəşəm xasiyyəti isə səbirli və düz adam olması idi. Çox zaman ən xırda incəliyə qədər düz olurdu. Sonuna qədər səbir edir, sonda səbirli olmağına dəyər sözünü əyani sübut edərdi.

Mənəvi özdəyərlərə sahib olması onun zəngin mənəvi keyfiyyətlərə sahib olmasından xəbər verirdi. Özünə qarşı tələbkar davranırdı. Heç vaxt özünə xələl gətirəcək işlərə yol verməzdi. Atacağı hər addımı planlayırdı. Onu gözümdə ucaldan hərəkətlərindən biri də bu idi...

- Əslində, saymaqla bitməz - deyir Nihad...

Razılaşıram onun bu fikri ilə...

**Nuray Sadıqova,**
*qızı*

- **Nuray, neçə yaşın var?**
- 13 yaşım var.
- **Dərslərini necə oxuyursan?**
- Yaxşı oxuyuram. Daha doğrusu, əla. Dərslərimə həmişə məsuliyyətli və dəqiq yanaşıram.
- **Hansı peşənin sahibi olmağı arzulayırsan?**
- Həkim olmağı arzu edirəm və bunun üçün çalışıram.
- **Boş vaxtlarında nə ilə məşğul olursan?**
- Boş vaxtlarımda rəsm çəkər, xarici əsərləri ara-sıra oxuyar, televizor izlər və musiqi dinləyirəm.
- **Nuray, atanı necə xatırlayırsan?**
- Atamı humanist, mehriban, səbirli, səmimi, savadlı və sadə biri kimi xatırlayıram. Onunla bağlı xatirələrim və düşüncələrim çox dərindir. Hər biri xoş və gözəl xatirələr və düşüncələrdir. İndiyə qədər mənim bir dəfə belə olsun xətrimə dəydiyini xatırlamıram.
- **Düşünürəm ki, o, şəhid olanda sən hələ kiçik idin. Buna baxmayaraq, artıq bir çox şeyi qavrayır və yadında saxlaya bilirdin. Atan haqqında bizə danışa bilərsən?**
- Bəli, kiçik idim. Qavramaq məsələsində isə səmimi olaq. Xeyr, inanın ki, o gün bir şey qavraya bilmirdim. Nəinki mən, məndən böyük qardaşım və anam belə o günün ağırlığını qaldıra bilmirdik. Atam daim aramızda idi. O gün artıq aramızdan ayrılmışdı. Bizə çox çətin gəlirdi. Xüsusən də mənə. Axı mənim onunla planlarım var idi. Onsuz biz nə edəcəkdik? İnanın ki, hələ də bu olanları

qavramaqda çətinlik çəkirəm. Həmin vaxtlar olanlar mənə bir fəlakət kimi görünürdü. Lakin bir müddət sonra gördüm ki, qardaşım böyüyüb. Anam daha əvvəlki kimi şux və gümrah görünmürdü.

Bütün ümidlərimiz əlimizdən alınmışdı sanki. Bəzən insan yaşamadığı duyğuları heç vaxt yaşamayacağını düşünür. Bəlkə də bu mövzunu heç düşünmür. Mən də, biz də bir gün atamızı vaxtsız itirəcəyimizi düşünməmişdik.

Biz onu, həqiqətən, çox sevirdik.

Hələ də sevirik. Hələ də sevirəm.

Mənim üçün əvəzolunmaz biri kimi daim qəlbimdə qalacaq...

- **Şəhid qızı kimi öz həmyaşıdlarına nə demək istərdin?**

- Məni bir şəhid qızı kimi, qəlbimdə xüsusi yeri olan atamın, bu zirvəni fəth etməsi, mən və mənim kimi minlərlə insanın rəğbətini qazanması çox qürurlandırır. Bəzən hər kəsin şəhidlərimizin etdiyi fədakarlığa layiq olmadığını düşünürəm. Ani olaraq atamın sağlığında etdiyi əməlləri və dediyi sözləri yadıma düşür. O həmişə deyərdi ki, "fədakarlıq böyüklük tələb edən hərəkətdir". O böyüklük də mənim atam kimi insanlara yaraşır.

*Ümumi olaraq belə düşünürəm, yalnız qızının qəhrəmanı olub, könlünü fəth edən biri yaxşı insandır. Amma ilk qızının qəhrəmanı olub, könlünü fəth edən, daha sonra bütün Azərbaycan xalqının rəğbətini qazanan biri isə böyük bir insandır. Bir ağac düşünün qollu-budaqlı, köklü-gövdəli. Elə bir ağac ki, kölgəsi hamının üzərinə düşsün, onun altında Vətən, bayraq, millət sevdalıları toplansın. Mənim atam da elə biridir.*

Dərk etdiyim əbədi, dəyişməz bir şey var ki, atam böyük bir *insandır.* Fikrimi qardaşımın sözləri ilə yekunlaşdırmaq istəyirəm.

**"O artıq yalnız mənim yox, bütün Azərbaycan xalqının qəhrəmanıdır..."**

**Sadıq Həsənov,**
*əmisi*

## "Bacıoğlu"

- **İlk olaraq özünüz haqqında məlumat verin.**

- Həsənov Sadıq Həsənxan oğlu, 1966-cı ildə Laçın şəhərində anadan olmuşam. Sadıqov Rəşad Xanlar oğlunun əmisiyəm. Onun öz sözü ilə desək, bacıoğlusu. Birinci Qarabağ müharibəsinə qədər ticarətlə məşğul olmuşam. Müharibədə bəlli vəziyyətə görə o vaxtı könüllü olaraq Daxili İşlər Nazirliyində işə düzəldim.

- **Bizə Rəşad haqqında, onun uşaqlığı, məktəbli dövründən nə deyə bilərsiniz?**

- Rəşadla bağlı xatirələrim çoxdur. Kiçik əmisi olduğumdan, aramızda səmimi münasibət olub və o hər zaman mənə bacıoğlu deyərdi. Atası rəhmətlik Xanlar (Rəşadın atası) məndən böyük idi. Biz Rəşadla əmi-qardaşoğlu münasibətindən çox dost-qardaş olmuşuq. O, hərbi məktəbin 1-ci kursunda oxuyurdu. Onunla görüş günləri görüşür, üst-başına, yerişinə, qamətinə diqqət edirdim. Bir az gözümə zəif görünən kimi tənbeh edir, qamətini düz saxlamağı, dik yeriməyi, formasını əzəmətli daşımağı tapşırırdım. Görüş günləri onunla qol güləşi edir, güc oyunları oynayırdıq. Düşünürdüm ki, o göründüyündən daha güclü olmalıdır. Motivasiya üçün pul verirdim. Yaxud elə vaxt olurdu ki, daha çox çalışsın, özünü sübut etsin deyə "cəzalandırırdım", pul vermirdim (gülümsəyir). Növbəti həftə görüşdükdə isə daha artıq pul verirdim. Həmin vaxt onun bir hərbçi xarakterində yetişməsi üçün çalışırdım. Sən demə, o, müqəddəs ad üçün seçilibmiş artıq...

**- Zabitlik həyatının 20 ilə yaxını Naxçıvanda olmuşdu. Həmin vaxtlar görüşürdünüzmü?**

- Mən Bacıoğlu adını hələ Laçında yaşadığımız zamanlardan qazanmışdım. Aramızda 12 illik yaş fərqi var. Nə qədər səmimi olsaq da, həmişə böyük kimi hörmətimi saxlayıb. Naxçıvanın onun həyatında mühüm rolu var. Ümumqoşun Komandanlıq Məktəbini bitirdikdən sonra təyinatını Əlahiddə Ümumqoşun Orduya verdilər. Hələ bölgüdən əvvəl ona təklif etmişdim ki, gəl sənə kömək edək, rahat yerlərdən birində xidmət elə. O zaman üzümə baxaraq dedi:
- *Bacıoğlu, yadında mən həmişə həkim olmağı arzulamışam.*
- Dedim:
- *Bəli!*
- Səsi titrəyərək sözünə davam etdi:
- *Həkim olmaq istəyim Xocalı hadisəsindən sonra öldü. Özümə söz verdim ki, hərbçi olacam...*

Daha söz deməyə gərək qalmadı. Onu başa düşürdüm. Naxçıvanda olanda da həmişə xidmətində fərqlənib. Müxtəlif hədiyyələr və fəxri fərmanlar alıb. Mükafatlarla qiymətləndirilib.

**- Naxçıvanda əməliyyat olunması haqqında nə deyə bilərsiniz?**

- 2004-cü ildə polisdə işlədiyim vaxtlar idi. Qəfil məlumat aldım ki, Rəşadı maşın vurub, vəziyyəti ağırdır. İlk çıxan reyslə təcili özümü Naxçıvana çatdırdım. Xəstəxanada izdiham vardı. Həmin vaxt Naxçıvan Muxtar Respublikasının Daxili İşlər naziri, Ümumqoşun Ordu Komandanı və tanımadığım onlarla yüksək vəzifəli şəxslər, yerli insanlar və s. xəstəxanada idilər. Nə qədər qəmgin olsam da, gördüyüm mənzərə məni qürurlandırmışdı. Sanki oradakı insanların hamısı onun doğması idi. Məni nə isə etməyə qoymadılar.

Kursantlarla yolu keçərkən idarəetməni itirən avtomobil uşaqları vuracaqmış. Bunu vaxtında görərək kursantları itələyib yoldan çıxarır. Özünü isə maşın vurur. Ağır kəllə-beyin əməliyyatı keçirir

və bir neçə gün komada qalır. Həkim də xüsusi tapşırıqla Bakıdan gəlmişdi. Ağır əməliyyatdan sonra çox da umudlu danışmırdı.

- **Müharibə vaxtı əlaqə saxlayırdınızmı?**

- Rəşadla müharibə vaxtı çox da əlaqə saxlaya bilmirdik. Məlum səbəblərdən telefonda hər zaman dalğa tutmurdu. Hamı kimi biz də dost-tanış cəbhəyə yardımlar göndərmək istəyirdik. İstəyirdim Rəşad olan hərbi hissəyə göndərək. Mənimlə danışanda uzaqda olduqlarını, artıq Güləbirdə çatdığını bildirdi. Həmin vaxt səsində böyük sevinc hissi duydum. Özünün də dediyi kimi, yardımları başqa hərbi hissənin nümayəndələrinə təhvil verdik.

- **Hərb həyatından danışırdımı?**

- Hərbi xidmətindən çox danışmazdı. Son dərəcə nizam-intizamlı biri idi. Hərbi adıyla başlayan hər şeyi sirr kimi saxlayır, bizi də, ailəsini də buna öyrətmişdi. İstər telefonda, istərsə də üz-üzə kiminsə onun hərbi haqqında söhbət etdiyinə rast gələ bilməzdik.

- **Bildiyimizə görə, atası onun şəhidliyindən sonra vəfat edib...**

- Təəssüf... Elə də oldu. Biz Rəşadı o qədər güclü, o qədər iradəli bilirdik ki. Sadəcə qayıdıb gəlməyini, aramızda olacağını xəyal edirdik. Həmin gün o acı xəbər gələndə sarsılmışdıq. Qardaşım sakit təbiətli, dərin düşüncəli insan idi. Rəşadı dəfn etdikdən sonra hələ özümüzə gəlməmişdik ki, onun ölüm xəbəri bizə ikinci zərbə oldu. Fikirdən, dərddən, qəmdən dağ boyda kişi dünyasını dəyişdi.

- **Hərbçi yoldaşları onun ideal xarakterə sahib olduğunu qeyd edirlər. Bəs mülki həyatda necə insan idi?**

- Hərbçi olaraq necə mükəmməl idisə, evdə də, mülki həyatında da o qədər ideal idi. Hələ uşaqlıqdan bu yaşa kimi həddən artıq

mütaliə edər, kitab oxuyar, uşaqlarına da oxumağı təlqin edərdi. Hərbi biliyi ilə kifayətlənmir, demək olar ki, bütün dünya elmlərini də öyrənə bilmişdi. Ədəbiyyata ayrıca marağı vardı. Evlərində həmişə kitaba xüsusi yer ayırardı. Hətta qaçqınlıq həyatının çətin günlərində də oxumaqdan ayrı qalmırdı. Şəxsən mən mübahisəli mövzuların əksəriyyətini onunla dəqiqləşdirərdim. Yüksək dünya görüşünə sahib idi. Rəşad haqqında çox danışa bilərəm. Məndən kiçik olsa da, indi o məndən qat-qat böyükdür.

- **Laçınlı olaraq ata-baba yurduna gedə bilmisiniz?**

- Laçına bir neçə dəfə gedə bilmişəm. Doğulub-böyüdüyüm məhəlləyə, evə getmişəm. Gözüm hər yerdə onu və digər əzizlərimi axtarıb.

**Anar Mirzəyev,**
*polkovnik, Vətən Müharibəsi Qəhrəmanı*

# "Səmimi, cəsur, intizamlı"

- Rəşad Sadıqovla birlikdə xidmətimiz Goranboy rayonundakı "N" hərbi hissəsində baş tutmuşdu. Təxminən 1 il müddətində orada xidmət etmişik. O Əlahiddə Ümumqoşun Ordudan xidmət etdiyim hərbi hissəyə təyinat almışdı.

Həmin dövrdə mən hərbi hissə komandirinin müavini vəzifəsində xidmət edirdim. Rəşad isə hərbi hissə komandirinin şəxsi heyətlə iş üzrə müavini idi. Yəni, ikimiz də müavin idik. Lakin o, hər zaman mənə, eləcə də digər müavinlərə, bölmə rəislərinə xüsusi hörmətlə yanaşardı.

Onun səmimi, mədəni, etik normalardan kənara çıxmayan davranışları hərbi hissəmizin bütün şəxsi heyəti üçün nümunəvi etalona çevrilmişdi. Rəşadın ibrətamiz və səmimi söhbətləri nəticəsində, onunla ünsiyyətdə olandan sonra hər kəs davranışında dəyişiklik edir, maksimum səviyyədə hərəkətlərinə, sözlərinə, başqaları ilə münasibətlərinə daha çox diqqətlə yanaşırdı. Əsgərlərə xüsusi həssaslıqla yanaşması sayəsində bütün şəxsi heyətin hörmətini qazanmışdı. Onun üçün intizamsız əsgər anlayışı arxa planda yer tuturdu. "Hamısı bizim övladımızdır, biz onlara yol göstərməli, qaranlıqlarına çıraq olmalıyıq" - deyib doğru yol göstərərdi. Ön xətdən, döyüş növbətçiliyindən aşağı düşən şəxsi heyətə qarşı rütbə və vəzifəsindən asılı olmayaraq xüsusi həssaslıq nümayiş etdirir, yüksək qayğı ilə yanaşardı.

Qeyd edim ki, onu tanıyan hər bir hərbi qulluqçunun ondan öyrənəcəyi bir şey mütləq var idi. Hərbi Andda deyildiyi kimi, "səmimi, cəsur, intizamlı" olmaq onun genetik xüsusiyyətləri idi...

Daha sonra o, Gəncə şəhərində yerləşən hərbi hissələrin birinə bərabər vəzifəyə təyinat aldı. Hafizəmdə cəsur, fədakar, intizamlı və mədəni rəftarı ilə seçilən zabit olaraq qalıb.

Bir sözlə, yüksək intellektə və "dəmir intizama" sahib idi. Ordumuz Rəşad kimi zabitlərin göstərdikləri şücaətin, nümayiş etdirdiyi igidlik nümunələrinin sayəsində düşmənin başını "Dəmir yumruq"la əzdi.

**Anar Eyvazov,**
*polkovnik*

## "Nümunəvi zabit"

Rəşadla xidmətimiz Gəncə şəhərində yerləşən "N" hərbi hissəsində baş tutmuşdu. Mən tabor komandiri idim, o isə hərbi hissə komandirinin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə müavini vəzifəsində çalışırdı. Onun yüksək mədəniyyəti, nizam-intizamı və peşəkarlığı hər kəs üçün örnək idi. Əsl hərbçi kimi nitqində də qətiyyətli və təsirli olmağı bacarırdı. Sıra hazırlığında isə şəxsi heyət onu daim nümunə götürürdü.

2020-ci ilin mart ayından başlayaraq ölkədə pandemiya ilə əlaqədar xüsusi karantin rejimi tətbiq olunmuşdu. Hərbi rejimin özünəməxsus məhdudiyyətləri ilə yanaşı, bu dövr sosial-psixoloji baxımdan da çox çətin idi. Komandir və rəis heyətinin evlərinə getməsi məhdudlaşdırılmışdı, bu isə hərbçilərin mənəvi durumuna təsir göstərirdi.

Belə ağır şəraitdə Rəşad Sadıqov öz peşəkarlığını tam göstərdi. O, şəxsi heyətin mənəvi-psixoloji vəziyyətini qoruyub saxlayaraq, yorulmadan və fədakarlıqla öz vəzifəsini yerinə yetirirdi. Onun ruh yüksəkliyi və dözümü şəxsi heyət üçün böyük dayağa çevrildi.

Rəşad mənim üçün yalnız nümunəvi zabit yox, həm də səmimi insan olaraq qalacaq. Onun mədəniyyəti, savadı və işinə olan hörməti hər zaman yaddaşımda qalacaq. Sözləri ilə əməli üst-üstə düşən, vicdanlı və qətiyyətli zabit olaraq xatirəsi həmişə bizimlə yaşayacaq.

**Şahin Qəhrəmanov,**
*polkovnik, Rəşad Sadıqovun komandiri*

## "Şanslı idim"

Sadıqov Rəşadı zabit olaraq yüksək mədəniyyətə və intizama sahib zabit kimi xatırlayıram. Müavinim olaraq şəxsi heyətin diqqət və qayğısına qalır, öz övladlarına da vaxt ayırmağı bacarırdı. Pandemiya dövründə xüsusi karantinlə əlaqəli şəxsi heyətlə kazarma şəraitində qalmalı olurduq. Belə bir vəziyyətdə şəhərdə hərəkətin məhdudlaşdırılması biz hərbçilərə də şamil olunurdu. Dəfələrlə özüm ona şəxsən evə gedib bir neçə saat istirahət etməyini təklif etsəm də, əksər zamanlar "çox sağolun, cənab polkovnik, problem yoxdur" deyərdi. Bir dəfə qəribə gəldi və soruşdum.

Cavabında:

- Bütün şəxsi heyət burdadır, siz buradasız, mənə yaraşmaz axı tez-tez evə gedib gələm. Nə vaxt növbə mənə çatar onda da gedib tez qayıdaram - deyə cavab verdi.

Hərbi hissənin şəxsi heyətinin ona xüsusi rəğbət bəslədiyinin dəfələrlə şahidi olmuşdum. Gözəl insan idi.

Cəbrayıl rayonunun Havuslu kəndində yerləşmişdik. Qubadlı rayonu istiqamətində hücum edəcəyimiz əmrini almışdıq. Bir gün qabaq isə 4 nəfər hərbi qulluqçumuz şəhid olmuşdu. Həmin gün növbəti hücuma hazırlaşarkən hərbi hissənin zabit və digər heyəti ilə ruhlandırıcı söhbət edir, şəhidliyin ilk işi düşmənə qalib gəlmək üçün onu öldürmək, son anda canından keçməkdir deyə təbliğ edirdi. "Hər birimiz şəhid ola bilərik, hər birimiz əlsiz, ayaqsız, gözsüz, qala bilərik. Lakin bu gün hər birimizin bir amalı, bir istəyi var. 30 il Ermənistan silahlı birləşmələrinin işğalında qalan

torpaqlarımızı azad etmək, alnımıza, adımıza, nəslimizə yazılan qara ləkələri canımız və qanımız bahasına da olsa təmizləmək".

Döyüşlər vaxtı şəhidlərimiz olsa da, əhval-ruhiyyə, mənəvi-psixoloji vəziyyət yüksək səviyyədə idi. Təbii ki, burada əsgərlərin, xalqın, eləcə də bütün komandir və rəis heyətinin böyük rolu var idi. Rəşad kimi müavinim olduğu üçün şanslı idim.

Bala Soltanlı istiqamətində hücum edərkən yaralandığımda Rəşad kömək edərək, məni döyüş meydanından çıxarmışdı. Onun haqqında bu cür məlumatları sonradan öyrəndim.

Rəşad həm də mənim yadımda mükəmməl ata olaraq qalıb. İki övladı var idi. Vaxt etdikcə onları hərbi hissəyə gətirir, hərbi və hərbi vətənpərvərlik ruhunda tərbiyə edirdi.

**Çingiz Əlləzov,**
*tibb xidməti polkovniki, Əməkdar həkim*

# "Komadan zirvəyə"

İllər keçsə də, bəzi anlar var ki, yaddaşda silinməz iz buraxır. Xüsusilə də həyatla ölüm arasındakı o incə xəttin üstündə dayananda, bir insanın taleyi sənin əllərində olanda... Belə məqamları unutmaq mümkün deyil.

O gün də yaddaşımda dərin izlər buraxan günlərdən biri idi.

Xəstə indiki Şirvan rayonundan təcili tibbi yardım vasitəsilə gətirilmişdi. Əməliyyat otağında idim, vəziyyət olduqca ciddi idi. Birdən yuxarı komandanlıqdan təcili xəbər gəldi, dərhal aeroporta getməli və Naxçıvana uçmalıydım. Eyni anda iki məsuliyyət arasında qalmışdım: biri əməliyyat masasında həyatla mübarizə aparan xəstə, digəri isə haradasa mənim köməyimə ehtiyacı olan başqa bir zabit...

Əməliyyatı diqqətlə başa çatdırdım. Yaranın tikilməsi işini köməkçi həkimlərə həvalə etdim. Hər şeyin nəzarət altında olduğuna əmin olduqdan sonra qohumumun köməyilə tezliklə hava limanına yola düşdüm.

Təyyarə Bakıdan Naxçıvana axşam saat 23:00 radələrində qalxmalı idi. Uçuş artıq bağlanmışdı, amma mənim üçün 30 dəqiqəlik gecikmə tətbiq etmişdilər. Hava limanında, təyyarənin salonuna daxil olanda sərnişinlərin təəccüblü, bəzən də aqressiv baxışlarını hiss etdim. Amma ürəyimdə bir şey var idi: "Yəqin bu uçuş boşuna deyil…"

Naxçıvana çatdığımda hiss olunurdu ki, avtoqəza keçirən zabit sıradan biri deyil. Hər kəs narahat, gərgin, amma bir o qədər də səfərbər idi.

Xəstəxanaya daxil olanda artıq ilkin tədbirlər görülmüşdü. Kompüter tomoqrafiyası çəkilmiş, diaqnoz qoyulmuşdu. Hər biri təcrübəli, bu sahədə sınanmış mütəxəssislərdən əməliyyatda iştirak edəcək komanda formalaşdırılmışdı. Anestezioloq kifayət qədər təcrübəli həkim idi. Onun da çox əziyyəti olmuşdu əməliyyatın uğurlu başa çatmasında.

2004-cü il idi. O dövrdə bölgələrdə neyrocərrahiyyə əməliyyatı aparmaq çox çətin idi. İndi mövcud olan tibbi avadanlıqlar, müasir cihazlar o zaman yox idi. Hər şey insan əli, təcrübə və məsuliyyət hissinin üzərində dayanırdı.

Həmin vaxt mən polkovnik-leytenant rütbəsində xidmət edirdim. 2500-dən artıq neyrocərrahiyyə əməliyyatı həyata keçirmişdim və hər birinə peşəkar yanaşmışdım. Amma bu gecə, bu əməliyyat, fərqli idi. Sanki bir deyil, bir neçə həyat bir adamın içində toplanmışdı.

Beş saat davam edən ağır əməliyyatı səhərə yaxın tamamladıq. Zabitin sağ ənsə nahiyəsində sümük defekti vardı. Kəllədaxili geniş hematoma da toplanmışdı. Bütün bu problemləri əməliyyat zamanı aradan qaldırdıq. Lakin vəziyyət yenə də kritik olaraq qalırdı. Ümidimiz az olsa da, üzərimizə düşəni etmişdik. Xəstə üç gün komatoz vəziyyətdə qaldı. Nəfəsini, döyüntüsünü, göz qapaqlarının titrəyişini izlədik. Üçüncü gün oyanmağa başladı... Mən isə Bakıya qayıtdım.

Sonralar onunla Mərkəzi Hərbi Hospitalda həkim komissiyası zamanı yenidən qarşılaşdıq. Müalicəsi tamamlanmışdı. Gözlərində gümrahlıq, duruşunda əminlik vardı. Lakin prosedur qaydalarına uyğun olaraq hərbi xidmətə yararlılıq səviyyəsi Mərkəzi Hərbi Həkim Komissiyası tərəfindən təsdiqlənməliydi.

Qarşıda çətin bir qərar dayanırdı. Kəllə sümüyünün 27 mm-lik parçası çıxarılmışdı. Təqribi kibrit qutusu qədər hissəsində sümük qırıqları baş vermişdi.

Mövcud qaydalara, Nazirlər Kabinetinin 59 nömrəli qərarına əsasən, o, artıq hərbi xidmətə yararsız sayılmalı idi. Rəşadın, sözün əsl mənasında, yalvarışları ilk olaraq məni əsəbləşdirsə, də nə qədər ciddi olduğunu görüb ürəyim yumşaldı. Neyrocərrahiyyə əməliyyatı olduğu üçün mənim rəyim komissiya üçün əsas sayılacaqdı. Gözlərindəki parıltı, xidmət etmək istəyi, eləcə də komandirlərinin onun haqqında verdiyi müsbət xasiyyətnamələr, onu yüksək dəyərləndirmələri bizə seçim imkanı yaratdı.

Və biz onun arzusu ilə razılaşdıq...

İllər sonra ezamiyyət zamanı yenidən Naxçıvan hospitalında onunla qarşılaşdım. Rəşad mayor rütbəsi almışdı. Özünü yaxşı hiss edir, xidmətini davam etdirirdi. Gözlərində əvvəlki parıltı hələ də qalırdı.

Artıq hər şeyi bilirdim. Bilirdim ki, Rəşad Sadıqov özünü heçə sayaraq kursantların həyatını xilas etmişdi.

Daha sonra xəbər gəldi...

Rəşad Sadıqov, o cəsur zabit 44 günlük Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmışdı.

İndi dönüb baxanda hər şey bir zəncir kimi görünür: o gecə mənim təcili Naxçıvana göndərilməyim, təyyarə reysinin yarım saat gecikdirilməsi, əməliyyat zamanı general-mayorun şəxsən əməliyyat otağına daxil olub vəziyyətlə maraqlanması, Naxçıvan MR-ın Ali rəhbərliyinin vəziyyəti diqqətdə saxlaması... bunların heç biri təsadüfi deyildi.

Rəşad həm insan, həm də zabit olaraq xüsusi idi. Həyat ona ağır bir sınaq verdi, o isə bu sınaqdan məğrurcasına keçdi. Və sonra ən ali mərtəbəyə ucaldı.

**Niyaməddin Məmmədov,**
*mayor, kursantı*

# "Hidayəddin"

Həmin hadisə bugünkü kimi yadımdadır. Bəlkə də yaddaşım itər, adım yadımdan çıxar, lakin bu hadisəni heç vaxt unuda bilmərəm. Heydər Əliyev adına Hərbi Liseyin 1-ci kursunda oxuyurdum. O vaxtı liseydə indiki kimi tam belə gözəl şərait yaradılmamışdı. Biz tədris korpusunda dərsdən çıxıb müstəqil hazırlıq üçün zabitlər evinə gedirdik.

Mən bölüyün baş çavuşu idim. Yeməkxana və tədris korpuslarına keçid üçün magistral yoldan istifadə etməli olurduq.

Bu zaman bölükdə olan komandir heyəti yolu kəsir, gələn maşınları durduraraq kursantların yolu təhlükəsiz keçməyinə şərait yaradırdılar. Mən, eləcə də digər çavuş heyəti bu işdə yaxından kömək edir, əlimizdə bayraqlar və fənərlərdən istifadə edərək nəqliyyatın hərəkətini saxlayardıq.

Həmin gün, yəni, 4 dekabr 2004-cü il tarixində axşam saatlarında müstəqil hazırlıq bitmişdi. Hər yanda zülmət qaranlıq, bir də kəsici şaxta vardı. Taqım komandirimiz Rəşad Sadıqov Şahbuz rayonu tərəfdən gələn yolun ortasında dayanaraq yola nəzarət edirdi. Mən də yanında dayanmışdım.

Bölüyün 1-ci taqımı artıq yolun o biri hissəsinə keçmişdi. 2-ci taqım da yolu keçməyə başlayırdı ki, təqribən 50 metr aralıdan tək faranın işığı göründü. Səsindən və işığından motosikletə oxşatdıq. Əl edib saxlatmağa çalışsaq da, sürücü heç nə görmür, eşitmirdi.

Gecənin zil qaranlığı və bizim əynimizdə olan tünd rəngli forma işığın təsirini azaldırdı. Haradasa 10-12 metr məsafədə bizi fərq edən sürücü əyləci bassa da, artıq gec idi. Üstümüzə gələn bir farası yanmayan "QAZ 24-10, Volqa" markalı minik avtomobili idi.

Görünür idarəetmə itmişdi. Sürücü maşını saxlaya bilmirdi. Bu an komandirimiz özünü itirməyərək kursantları sağa-sola itələdi. Qışqıraraq "Məmmədov uşaqları çək" dedi. O gün bu, onun son sözləri oldu və artıq gec idi. Real olaraq bütün zamanını bizim xilasımıza sərf etmişdi deyə özünə vaxt qalmadı. Belə olan halda, avtomobil onu vuraraq bir neçə metr qabağa atdı. Bütün bu hadisələr bizim gözümüzün önündə, mənim isə bir başa yanımda baş verdi. Sanki maşın vuran komandirimiz yox, mən idim - hər şey bu qədər möhkəm qalıb hafizəmdə.

Mən kursant yoldaşlarım Qələndərli Alim və Vəliyev Cəfərin köməyilə onu qucağımıza aldıq. Başının arxa hissəsindən çoxlu qan axırdı. Xırıldayırdı, ifadələri itmiş, danışmır, görmürdü. Ancaq nəfəs alır və xırıldayırdı. 14 yaşlı uşaqlar üçün bu əsl faciə idi. Kiminsə belə bir dəhşətli hadisə zamanı nə etməli olduğu barədə, necə hərəkət etməklə bağlı təcrübəsi yox idi. Taqım çavuşları bölüyü toplayıb yolu keçirdilər. Mənim başım komandirimizə qarışmışdı. Bizi vuran maşın dayanmadı. Yaralı qucağımızda gələn maşınlara əl edib kömək etməyini istəyirdik. Bir maşın saxladı. Arxa oturacağa uzatdıq. Artıq neçə dəqiqə keçmişdi bilmirəm bu zaman bir hərbi "UAZ" yaxınlaşdı. İçindən bir zabit düşərək qabaq oturacaqda əyləşdi və bizim liseyə getməyimizi əmr etdi...

Həmin vaxt şam yeməyi üçün yeməkxanaya girsək də, heç kəs yemək yemədi. Bölüyümüzün bütün kursantları onun üçün ağlayırdıq. Yeməkxanadan çıxdıqdan sonra bizim bölüyü kazarmada düzdülər. Düzülüşdən sonra hər kəs oturacağını götürüb foyedə əyləşmişdi. Artıq aidiyyəti üzrə hər kəs bu bədbəxt hadisədən xəbərdar idi. Tədris şöbəsinin zabitləri, tərbiyəçilər bizimlə söhbət edir, hadisənin şokunun təsirini azaltmağa çalışırdılar. Bu vaxtı növbətçi gəlib Məmmədov Hidayəddinin kim olduğunu soruşdu. Səs çıxmadı, təkrar soruşduqda isə hərə bir yandan cavab

verdi ki, Məmmədov Hidayəddin yox, Niyaməddin olar.

Mən tez dilləndim ki, Məmmədov Niyaməddin mənəm. Bizdə siz deyən adda kursant yoxdur.

Növbətçi komandanın məni və yanımda olan kursantları çağırdığını bildirdi. Üçümüzün də üstü və axşam oxumaq üçün götürdüyümüz dərsliklərimiz qana bulanmışdı. Əynimizi dəyişməyə ehtiyac olmadığını bildirdilər. Maşınla bizi Mərkəzi Xəstəxanaya apardılar. Komandanlığın bütün rəhbər heyəti orada idi. Rəşad Sadıqov xəstəxanada mənim adımı sayıqlayırmış. Sadəcə səsi xırıltılı çıxdığı üçün Niyaməddin yox "Hidayəddin" kimi başa düşülmüşdü. Hadisənin yaxın şahidləri kimi nə baş vermişdisə, hamısını bir-bir təfərrüatı ilə cənab komandana danışdıq. Bizi dinləyib sonra liseyə aparılmağımızı əmr etdi...

Nəinki bizim bölüyümüz, kursun bütün heyəti onun xətrini çox istəyirdi. Liseyin müəllim və zabit heyəti, bir sözlə, onu tanıyan hər kəsin yanında xüsusi hörmətə sahib idi. Elə bu hörmət səbəbindən liseyin 3-cü kursları, 2-ci kursları dəfələrlə qaçıb xəstəxanada ona baş çəkmişdilər.

Bir məqamı da qeyd etmək yerinə düşər ki, Rəşad Sadıqov hər bir kursantı öz övladı kimi sevirdi. Baş çavuş olduğuma görə komandirlərlə daha sıx əlaqədə olmaq imkanım olurdu. Bəzi pərdə arxası məqamlar vardı ki, onu digər kursantlar görməsə də, mən və ya digər taqım çavuşları daha yaxşı görür, daha yaxşı bilirdik. Onun qəlbində həmişə insana, insanlığa böyük məhəbbət olub.

Bu hadisədən sonra o, hamının, hətta onu tanımayan Naxçıvan əhalisinin qəlbində belə özünə taxt-tac qura bilmişdi.

Hər zaman nümunəvi davranışı və yüksək əxlaqı ilə bizə örnək olan komandirimiz o gün qəhrəmanlıq edərək bizim baş tacımız olmuşdu.

İndi isə o, bütün Azərbaycanın qəhrəman övladıdır.

**Azər Əzizov,**
*ehtiyatda olan mayor, döyüş yoldaşı*

# Bir şəklin tarixçəsi...

**Sanki şəhid olacağını hiss etmişdi deyə, taborun döyüşçüləri ilə şəkil çəkdirdi...**

12 oktyabr 2020-ci il. Artıq Füzuli rayonunun Horadiz qəsəbəsi yaxınlığında tərtiblənmişdik.

Axşam, ya da səhər günəş oyanmadan döyüşə atılacaqdıq. Rəsmi olaraq bildirilməsə də, bütün hazırlıqlar yaxın saatlarda döyüşə başlayacağımıza işarə edirdi.

İstiqamət üzrə mən və polkovnik-leytenant Rəşad Sadıqov komandir heyətinə kömək olaraq həmin tabora ayrılmışdıq. Rəis məni və taborun qərargah rəisi kapitan Əbülfəz Rəhmətovu çağıraraq xüsusi tapşırıqlarını çatdırdı. Şəxsi heyətin təhlükəsiz qaydada avtomobillərə minməyini, döyüş texnikaları və silah-sursatla ehtiyatlı olmağı tapşırdı.

Bizimlə söhbət edərək girəcəyimiz döyüşün məsuliyyətini, mahiyyətini izah etdi. Ruh yüksəkliyi verdi. Düşmənin qorxaq və aciz olduğunu, cəngavər, igid Azərbaycan əsgəri qarşısında tab gətirə bilməyəcəyini bir daha xatırlatdı. Sonra mənə və taborun qərargah rəisinə bu əsgərlərin bizə əmanət olduğunu bildirdi. Tapşırığa əsasən, biz şəxsi heyəti sağ-salamat və təyin olunmuş vaxtda hücum edəcəyimiz mövqeyə çatdırmalı idik.

Söhbət etdikdən sonra isə hamımızı ətrafına yığaraq xatirə şəkli çəkdirdi.

Şəkil çəkdirmək üçün hamımız xüsusi sevinclə dayanmışdıq. Kim bilərdi ki, sonradan bu şəkil 4 nəfərin son şəkli olacaq?! Pol-

kovnik-leytenant Sadıqov Rəşad, kapitan Rəhmətov Əbülfəz, baş leytenant Ələkbərov Röyal və çavuş Bəkirov Orxan.

Tale ona şəhidlik zirvəsini öz doğulub, boya-başa çatdığı Laçın torpağında, ağlayıb-çağlayan Həkəri çayında əl-üzünü yuyandan sonra nəsib etdi.

Ruhu qarşısında dərin minnətdarlıq duyur, Allahdan ona və bütün şəhidlərimizə rəhmət diləyirəm.

**Orxan Bayramlı,**
*kapitan, Rəşad Sadıqovun köməkçisi*

# Zəhmət olmasa

Gənc zabit olan vaxtlarımda tanımışdım polkovnik-leytenant Rəşad Sadıqovu. Özüm heç vaxt sevməmişəm yeni kollektivə öyrəşməyi, mənim üçün həmişə sıxıcı olub həmin anlar, lakin kollektivə yeni şəxs gələndə çalışmışam həmin adamla deyib-gülüm, söhbət edim, həmin adamı sıxılmağa, darıxmağa qoymayım. 2019-cu ilin əvvəllərində xidmət etdiyim hərbi hissəyə yeni təyinat almışdı. Uzun müddət Naxçıvanda xidmət etdiyini eşitmişdik. Açığını deyim ki, bir-birimizə öyrəşməyimizin zaman alacağını düşünürdüm. Üstəlik, birbaşa mənim rəisim olduğu üçün özümü daha məsuliyyətli hiss edirdim. Münasibətimiz nizamnamə qaydalarına uyğun olmalı idi. Lakin heç də hər şey düşündüyüm kimi olmadı.

O, qısa müddət ərzində nəinki tabeliyində olan zabit heyətinin, həm də hərbi hissənin bütün şəxsi heyətinin qəlbini fəth etməyi bacardı. Hamıya yüksək mədəniyyət və təvazökarlıq edərək sərt əmr cümlələri yox, əvəzində daha məsuliyyətli, daha yumşaq yanaşma göstərdi. Verdiyi tapşırıqların hər biri bizim üçün əmr idi. Amma o bunu dediyim kimi, elə bir tərzdə ifadə edirdi ki, insan tapşırığın nə olmasından asılı olmayaraq ruhlanırdı. Şövqlə, enerji ilə icra edirdi. O, mən və mənim kimi bir çox zabit heyətinə nümunə ola bilmişdi. Hər bir kəsə müraciətində "zəhmət olmasa", "xahiş edirəm" sözlərindən istifadə edir, insanı sona qədər dinləməyi bacarırdı.

Həmişə deyərdi ki, *"qarşında olan şəxsin kimliyindən asılı olmayaraq onunla ünsiyyətdə "zəhmət olmasa", "xahiş edirəm"*

*sözlərini işlət. Ola bilər onda bəzi xüsusiyyətləri bəyənmirsən. Ola bilər ki, hansısa ünsiyyəti öz xoşluğunla yox, xidməti məcburiyyətdən yaratmalı olmusan. Mehriban və səmimi ol. Çünki bu sözlər həmin insanı ani də olsa, yaxşı yola gəlməyinə kömək edib, təkan verəcək".*

Əslində, saatlarla danışa bilərəm, xoş xatirələrimi bölə bilərəm, sadəcə nə qədər yazsaq da, danışsaq da, şəhid polkovnik-leytenant Rəşad Sadıqovu heç bir cümlə və ya söz ifadə edə bilməz. İstər bir fərd kimi, istər zabit kimi, o, hər bir kəsə hörmətlə yanaşırdı, hər bir kəs də onu ağsaqqal kimi görüb, hörmət və izzətlə xətrini saxlayırdı.

Mənim üçün ən önəmlisi odur ki, xidmət etdiyim müddət ərzində onun kiminsə xətrinə dəydiyini, yüksək səslə danışdığını görmədim.

**Anar Mustafayev,**
*çavuş, hərbi orkestrin musiqiçisi*

# Gözlənilməz komanda, heyrət doğuran reaksiya

Hərbi hissənin orkestr bölməsində xidmət edirdim. Polkovnik-leytenant Rəşad Sadıqovla xidmət yolumuz Gəncə şəhərində kəsişmişdi. Bölməmizin şəxsi heyətinin ona həmişə xüsusi rəğbəti olmuşdur. Yadımda xatirələri çoxdur. Lakin daha çox iz buraxan bir hadisəni danışmaq istəyirəm.

**Pandemiya dövrünə təsadüf edən adi xidmət günlərindən biri idi...**

Şəxsi heyətin yoxlanılması üçün qəfil toplanış komandası verildi. Bizi düzüb yoxlamaq üçün rəhbər cənab polkovnik-leytenant R.Sadıqov təyin edilmişdi. Bölməyə toplanış komandası verildi. Təyin olunan yerdə düzüldük. Siyahı oxunduqda bəlli oldu ki, şəxsi heyət tam deyil. Yəni, 3-4 nəfər hərbi qulluqçu düzülüşə gəlib çatmamışdı. Belə olduqda polkovnik-leytenant məruzə etməli, həmin yoldaşlar ciddi cəzalanmalı idilər. O isə düşündüyümüzün əksinə etdi.

Bir xeyli səbirlə dayanıb gözlədi. Hamı yerində olanda artıq toplanışın icra olunacağı vaxt çoxdan bitmişdi. Biz yenə də onun əsəbləşəcəyini, komandirə məruzə edərək gecikənlərin ciddi cəzalandırılacağını gözləyirdik. Yenə də gözlədiyimiz olmadı. O, səbir və təmkinlə yenidən hər kəsi yoxladı. Hər kəsin yerində olduğuna əmin olduqdan sonra komandirə şəxsi heyətin yerində olması barədə məruzə etdi. Onun bizə qarşı bu cür davranması və qarşılığında özünü "riskə" atması qəlbimizdə məhəbbətini artırdı.

Danışdığım bu kiçik hadisədən sonra cənab polkovnik-leytenantla ara-sıra rastlaşır, həmsöhbət olardıq. Həmsöhbətinin nə danışdığından asılı olmayaraq diqqətlə sonacan dinləyərdi.

Növbəti bir xatirəsi isə müharibə başlayan zaman oldu. Düşmən tərəfindən Gəncə şəhərinə atılan raketlərdən biri hərbi hissə yaxınlığına düşmüşdü. Bu zaman hər kəsə sığınacaqlara girmək komandası verilmişdi. Həmin vaxt polkovnik-leytenant Sadıqov hərbi hissənin ərazisini gəzir, hamının sığınacaqlarda olduğunu yoxlayırdı. Bu zaman mən ona kömək etmək üçün müraciət etdim. O, mülayimcəsinə köməkdən imtina edib, sığınacağa qayıtmağımı bildirdi.

Təbii ki, haqqında çox danışmaq olar. Mənim üçün ömrüm boyu xatırlayacağım, xatırladıqca yaxşı ki, tanımışam deyəcəyim insandır şəhid Rəşad Sadıqov.

Düşünürəm ki, bir yerdə çox xidmət etmiş olsaydıq, daha çox şeylər öyrənə bilərdik.

**Sərdar Ağayev,**
*kənd sakini*

# Ballıqaya kəndində acı gün

Bahar fəsli olsa da, həmin gün bir qış kimi soyuq keçdi. Adi günlərdən biri idi. Həmişəki kimi tövlədə heyvanlara ot və su verirdim. İki yaşlı qızım və həyat yoldaşım evdə idi. Çöldən səs-küy gəldiyini, yoldaşımın qışqıraraq məni çağırdığını eşitdim. Təlaş içində qaçaraq çölə çıxdım və evimizin alışıb yandığını gördüm. Həmin vaxt artıq səs düşmüş, yaxınlıqdakı qonşular köməyə gəlirdi. Ballıqaya rayon mərkəzindən kifayət qədər uzaqlıqda yerləşir.

Fövqəladə Hallar Nazirliyinin Yanğın Söndürmə əməkdaşlarının gəlməsi xeyli vaxt alacaqdı. Hərbi hissə isə onlardan daha yaxın idi. Yanğını görən hərbçilər öz təşəbbüsləri ilə bizə köməyə gəlmişdilər. Heç birini tanımırdım. Bizi sakitləşdirdilər. Yüngül yanıq xəsarəti alan qızımı isə hərbi hissənin tibb məntəqəsinə apararaq ilkin tibbi yardım göstərdilər. Sonralar bizimlə maraqlanırdılar. Öyrəndim ki, bizə köməyə gələn hərbçi polkovnik-leytenant Rəşad Sadıqov olub.

Rəşad azyaşlı qızımın yanğından qurtarılmasında xüsusi fədakarlıq göstərmişdi.

Həyatım boyu mən və ailəm həmin insanlara, eləcə də Rəşad müəllimə sonsuz minnətdar olacağıq. Qızım həmin vaxt körpə idi. Bəlkə də, o, vaxtında köməyə gəlməsəydi, hər şey tam başqa ola bilərdi.

# Baharın qış günü

Havalar yavaş-yavaş istiləşir, yazın gəlişi ilə ətraf canlanmışdı. Payızda isti ölkələrə uçub gedən quşlar artıq yavaş-yavaş öz yuvalarına qayıtmağa başlamışdılar. Goranboy rayonunun ucqar Ballıqaya kəndində həyat dirçəlir, kəndlilər əkin-biçinə, heyvandarlığa başlamışdılar. Bu kənd ana yurdumuzda bir çox ucqar kəndlər kimi eyni taleyi yaşamışdı.

Birinci Qarabağ müharibəsi zamanı mənfur qonşularımızla sərhəddə yerləşdiyi üçün çox ağrı-acılar çəkmiş, müharibənin iztirablarına şahidlik etmişdi. Lakin bütün bunlara baxmayaraq, yenə dimdik ayaq üstündə dayanır, öz əhalisini bağrına basıb, dağların qoynunda aram-aram öz həyatını yaşayırdı.

Bir də ki, bu kənddə Azərbaycan Ordusunun hərbi hissələrindən biri yerləşirdi. Hərbçilər kənd əhalisi ilə mehriban dolanırdılar. Bəziləri bu kənddə qalır, kimisi Goranboy rayonun özündə, kimisi də ətraf rayonlarda yaşayırdı. Ətraf rayonlarda qalsalar da, hər gün çətin şəraitdə maşınlarla dağ yolunu qalxar, axşam isə həmin yolu geri qayıdıb evlərinə gedərdilər.

Ballıqaya kəndi yüksəklikdə yerləşsə belə, hərbi hissənin yerləşdiyi ərazi kənddən bir qədər yüksəkdə idi.

Adi günlərdən biri, aprel səhəri idi. Rəşad Gəncədə yaşadığı evdən çıxıb, yoldaşları ilə birlikdə xidməti yerinə gedirdi. Ballıqaya kəndində də sıradan gün idi. Kəndlilər səhər tezdən mal-qaranı tövlədən çıxarıb örüşə yola salır, əkin-biçinlə məşğul olanlar sahəyə düşmüşdülər. Dan yeri sökülən kimi kənd yerində həyat qaynamağa başlayır. Toyuq-cücənin, it-pişiyin, qoyun-quzunun səsi bir birinə qarışır, babam demişkən "ruzi paylanan vaxt" başlayır. Ruzi paylanan vaxt ona görə deyirdi ki, həmin zaman hər

kəs öz işinin, ruzisinin dalıyca qaçır, işinin başına keçirdi.

Həmin gün hamı kimi Ağayevlər ailəsi də tezdən oyanmış, Sərdar tövləyə keçmişdi. Mal-qaranı açıb örüşə haylamış, sonra yenidən qayıdıb tövlədə olan işləri görməyə başlamışdı. Kefi kök, əhvalı yaxşı idi. Xırda məişət problemlərini saymasaq, hər şey yolunda idi. İki yaşındakı körpə qızı Nuranə şirin-şirin yatır, yoldaşı isə ev işləri ilə məşğul olurdu. Aprel ayının əvvəlində dağ yerlərində sobasız keçinmək mümkün deyil. Odur ki, Sərdarın yoldaşı doğranmış odunlardan gətirib sönmüş sobanı yenidən alovlandırdı. Təzə sağılmış südü süzmək üçün mətbəxdən şirəli qazan götürüb eşiyə çıxdı. Sərdar da həmin vaxt tövləni yığışdırır, heyvanların peyinini arabaya yığıb tövlədən aralıda yerləşən peyinliyə daşıyırdı.

Tövlədə 1 dana və 2 buzov qalmışdı. Onların altını çöl süpürgəsi ilə süpürüb quru samandan tökəcək, sonra ot və su verib çıxacaqdı. Peyinlik yeri tövlədən xeyli aralıda yerləşirdi. Araba ilə qayıdanda evləri tərəfdən səs-küy gəldiyini eşitdi...

Rəşad iş yoldaşları ilə birlikdə hərbi hissəyə tərəf yol qalxırdı. Yaz yağışı axşamdan hər yanı palçığa çevirmişdi. Buna baxmayaraq, sürücü dağ yolunda maşını məharətlə idarə edirdi. Rəşad tələsməyini biruzə vermir, həmişəki kimi sakit və təmkinli oturmuşdu. Ondan əlavə maşında 3 nəfər də hərbçi vardı. Onun üçün önəmli olan dolanbac dağ yollarında təhlükəsiz hərəkət etmək idi. Qəfildən kənd tərəfdən tüstü qalxdığını gördü. Bu adi odun sobasının tüstüsünə bənzəmirdi. Ağacların arxasından kiminsə ot tayasının yandığını düşündülər. Rəşad:

- Yox, bu ot tayasının tüstüsünə bənzəmir. Həm də bu vaxtı quru ot çətin tapıla. Mal-qara qış vaxtı quru otu yeyib bitirir, adətən. Bu tüstü nədirsə, yaxşı bir şeyə oxşamır. Allah axırını xeyir eləsin. Bu cür həyəcanlı söhbətlər getdiyi zaman maşın

ağaclıq ərazini keçib, açıq əraziyə çıxdı.

Bəli, Rəşad komandir şübhələrində haqlı idi. Bu nə odun sobası, nə də quru ot ocağının tüstüsü deyildi. Kəndlilərdən kiminsə evi yanırdı. Alov kifayət qədər güclənmişdi. Komandir tərəddüd etmədən maşını evə tərəf sürməyi əmr etdi....

Maşın həyətə girər-girməz Rəşad qapını basıb özünü çölə atdı. Heç nə düşünmədən evə tərəf qaçdı. Cavan bir gəlin həyətdə vayşivən edir, qonşular onu sakitləşdirməyə çalışırdılar. O öyrəndi ki, içəridə 2 yaşlı körpə qız uşağı var. Bu qadın isə onun anasıdır. Balasını qurtarmağa çalışır. Bunu eşidən komandir bir an belə düşünmədən özünü yanan evə atdı. Az müddət sonra qucağında bir uşaq çölə çıxdı. Bunu görən insanlar bir anlıq sevinməyə, ana isə hıçqıra-hıçqıra ağlamağa başladı. “Balam yaxşıdı? Ona heç nə olmayıb ki?!” bənzər suallarla komandirin üstünə qaçdı.

Sərdar tövləyə çatanda səslərin onun evi tərəfdən gəldiyini hiss etdi. Arabanı tullayıb həyətə tərəf qaçanda evdən qatı şəkildə tüstü ucaldığını gördü.

Hövlnak özünü həyətə yetirdi. Həyətdə hərbçilər və qonşulardan bir neçə adam vardı. Yoldaşı həyəcanlı halda ağlayır, qızı Nuranə isə bir zabitin köksünə sığınmışdı. Çox keçmədi ki, hərbi hissənin yanğın söndürən heyəti həyətə daxil oldu. Rayondan gələcək FHN komandası isə ən tez halda 35-40 dəqiqəyə bura çatacaqdı....

Azyaşlı qız yüngül yanıq xəsarətləri almışdı. Amma vəziyyəti o qədər də qorxulu deyildi. Kəndlilər və hərbçilər birləşərək evi söndürməyə cəhd edirdilər. Artıq yanğınsöndürən heyət də gəlib çıxmışdı. Lakin evdə olan əşyaların əksəriyyəti yanıb kül olmuşdu. Rəşad uşağı və valideynlərini maşına qoyub hərbi hissəyə yola saldı. Həm də tapşırdı ki, onlara qulluq olunsun, uşağa tibbi yardım göstərilsin.

Sərdar və onun ailəsi bu hadisəni bir ömür xatırlayacaq, Rəşadın qəhrəmanlığını heç vaxt unutmayacaqdılar. Rəşad Sadıqov isə həmişə təvazökarlıq göstərərək belə bir durumda hər kəsin onun kimi davranacağını bildirirdi. Üstəlik bunu özbaşına deyil, komandanlığın göstərişi ilə etdiyini vurğulayırdı. Amma o və yanındakı yoldaşların bunu Rəşad Sadıqovun şəxsi təşəbbüsü olduğunu gözəl bilirdilər.

**Alim Fətəliyev,**
*kursant və xidmət yoldaşı*

# Müqəddəs zirvədə tamamlanan ömür!

Rəşadla birlikdə hərbi təhsil alıb, zabit olduqdan sonra da bir yerdə xidmətə başlamışdıq. Rəşad çox dəqiq, savadlı və intizamlı kursant olmuşdu. Arada söz düşəndə ona deyərdik ki, sən bu cür savadla başqa peşəyə də sahiblənə bilərdin. Çünki o dəqiq elmləri çox yaxşı oxuyurdu. Onun üçün fizika, riyaziyyat, həndəsə kimi elmlər asan idi və möhkəm yadda saxlaya bilirdi. O vaxtı təhsil alarkən ixtisasa uyğun olaraq biz materiallar müqaviməti fənnini öyrənirdik. Bu fənn isə xüsusi çətin və yorucu gəlirdi bizə. Rəşad isə bu fənni hamımızdan yaxşı oxuyurdu. Burada yüksək dəqiqlik tələb olunurdu. Rəşad dəqiq elmlərə xüsusi maraq göstərdiyindən bizim hamımıza çətin gələn fənn onun üçün maneə törətmirdi.

Bir dəfə fizika dərsində müəllim dərs izah edirdi. Çox savadlı və sevdiyimiz müəllimlərdən idi. İşini sevən, təcrübəli müəllim həm də fizika elmləri üzrə dosent statusu qazanmışdı. Fənlər bizə rus dilində tədris olunduğundan sonradan ədəbiyyatlar dəyişdi və Azərbaycan dilində keçirildi. Həmin müəllim lövhədə dərs izah edərkən bir terminin izahatında çətinlik çəkirdi. Rəşad tez dillənərək bu terminin "SP - mühəndis şunuru" olduğunu bildirdi. Müəllim tabaşir əlində təəccüblə sinfə tərəf dönərək Rəşada baxdı. Gülümsəyib "mən neçə vaxtdı öz-özümə düşünürəm ki, bu "SP" nədir burada yazılıb? Sən belə asanlıqla bunu izah etdin. Əhsən sənə!" - dedi

Naxçıvanda xidmət edərkən mən dağda donvurmaya düşmüşdüm. Əllərim, üzüm və ayağım ciddi don xəsarətləri almışdı.

Rəşad həmin vaxt mənə lazım olan dərman preparatlarını Naxçıvan şəhərindən tapıb gətirmişdi. Daha sonra isə dəfələrlə evə gəlib mənə baş çəkərdi. Evdə qalaraq özümə qapanmağa qoymazdı. Tez-tez bayıra çıxarar, çay içməyə apardı. Ərinib getmək istəməyəndə isə təsəlli verib ürəkləndirərdi. Deyərdi ki, "dur ayağa, yatmaq nədir, uzanmısan burda". Deyirdim ayağım ağrıyır, getmək istəmirəm. Zarafat edərdi ki, "özünü tənbəlliyə vurma, sən qoca əsgərsən, bir balaca soyuqdan heç nə olan deyil"... Bundan sonra dostlar arasında mənə zarafatla qoca əsgər deməyə başladılar.

Bizim Naxçıvanda xidmət etdiyimiz illər tək ordu deyil, bütün Naxçıvanın da çətin günləri idi. Dükan tapılmır, aptek hər yerdə yox idi. Lakin buna baxmayaraq, Rəşad heç kəsdən köməyini əsirgəməzdi.

Postlarda avtomobil hərəkət edə bilməyən ərazilərdə atlardan istifadə edirdik. At vasitəsilə komandirlər mövqeləri yoxlayır, təminat vaxtı isə ərzaq və digər zəruri vasitələrin daşınmasında istifadə edilirdi. Rəşadın da boz rəngli atı vardı. Atın sinəsinə xəncər bağlamışdı. Uzaqdan gələndə ona baxıb ləzzət alırdım. Silahı kürəyində özü də məğrurcasına atın üzərində oturmuş halda insana əsl Qafqaz kişisini xatırladırdı.

Bir mühüm xatirəmi də paylaşmaq istəyirəm. Şahbuz rayonun "Qogi" dağı adlanan zirvəsində yeni mövqelərimiz salınırdı. (Qoqi zirvəsi Şahbuz rayonu ərazisində, Dərələyəz dağ silsiləsinə daxildir. Kükürdağ ərazisində yerləşən zirvənin dəniz səviyyəsindən hündürlüyü 3000 metrdir. Lakin zirvənin əsas hissəsi Ermənistan tərəfə düşür. Burada həyat şərtləri olduqca çətindir. Əsasən də qış mövsümündə, soyuqların başladığı dövrdə hərəkət məhdudlaşır. Yüksəklik normal həyat şərtlərini qısıtlayır. Qış gəldikdə isə hərəkət demək olar ki, dayanır.) Postlar arasında ara boşluqları çox olduğuna görə mövqelər sıxlaşdırılmalı idi. Biz bir

neçə gün ərazidə qazıntı işləri apardıq. Mövqelər hazırlandı, bölmələrimiz tərtibləndi. Möhkəmlənmə tədbirləri həyata keçirildikdən sonra uzun müddətli atəş nöqtələri, əsgərlərin gecələməsi üçün yataqxana konteynerləri və s. yerləşdirildi. Şahbuzda yerləşən hərbi hissə özü də təzə yaranmışdı. Müəyyən məişət problemləri vardı. Belə çətin vəziyyətdə təzə yaradılan mövqelərin bölük komandiri Rəşad Sadıqov təyin edildi. Onun yuxarı vəzifəyə təyin edilməsi sevindirici olduğu kimi, bu cür çətin mövqelərə komandir təyin edilməsi həm də məsuliyyətli idi. Görünür, həmin vaxt komandanlıq o Qafqaz kişisinin bu vəzifənin öhdəsindən layiqincə gələcəyini düşünmüşdü. Elə də oldu. Rəşad o dövrdəki komandanlığın inam və etibarını doğrultdu. Yeni salınmış postlarda düşmən şəxsi heyətin dirənişini qırmaq, əsgərlərimizin gözünü qorxutmaq məqsədilə mütəmadi olaraq atəşkəsi pozur, hərbi qulluqçularımızın sərbəst hərəkətinə təhlükə yaratmağa cəhd edirdilər. Təminat yollarını rahat görür, bizim əsgərləri yaralayır, bəzən də bu yaralanmalar əksər vaxtı şəhid olma halları ilə nəticələnirdi. Hərbçilərimiz postlardan hərəkət etmək üçün dumanlı hava şəraitindən istifadə edirdilər. Bir dəfə isə düşmən postundan açılan atəş nəticəsində bir əsgər şəhid oldu. Rəşad özünə söz vermişdi ki, həmin əsgərin qisasını alacaq. Bu məqsədlə SVD silahı ilə döyüş mövqeyində günlərlə fasiləsiz növbə aparmağa başladı. Müşahidə apararaq düşmənin hərəkətini izləyən komandir görüntü verən erməni hərbçisini ilk atəşlə yerə sərdi. Ən maraqlısı isə o idi ki, birinci atəşdən səndələyib yıxılan erməni yerə dəyər-dəyməz Rəşad artıq ikinci gülləni də ona qovuşdurdu. Bu ən məharətli snayperlərə aid xüsusiyyət idi. Rəşad ordunun arsenalında olan silah-texnikanın əksəriyyətindən istifadə və atış qaydalarını mükəmməl bilirdi. 1 həftə ərzində artıq düşmənin bir hərbi qulluqçusunu məhv etmişdi.

Bu hadisədən sonra artıq ermənilər sakitləşdi, “sanki qurbağa gölünə daş atdılar”. Həmin istiqamətdə isə uzun müddət atəşkəsi pozmağa cəhd etmədilər.

Rəşad çox utancaq idi deyə bilərəm. Amma geniş ifadə etsək, daha çox ədəbli və həyalı idi. Onda əksər insanlarda olmayan həya hissi vardı. Harada həya etmək, öz mədəniyyətini necə qorumaq lazımdır çox yaxşı bilirdi. Onun bu abır-həyalı xüsusiyyətləri adama bir növ Həzrəti Yusif peyğəmbərin ədəbini xatırladırdı.

**Habil Abdullayev,**
*kursant yoldaşı, ehtiyatda olan kapitan*

## 36 kvadratdan böyük səmimiyyət

1995-ci ildən 1999-cu ilə qədər Bakı Ali Ümumqoşun Komandirləri Məktəbini bir oxumuşduq. Rəşadla eyni bölükdə, fərqli taqımlarda idik. 2-ci bölüyün 1-ci taqımında mən, 2-ci taqımında isə o təhsil alırdı. Rəşadla kursant yoldaşı olmağın ayrıca zövqü vardı. İstər fiziki, istər zehni, istərsə də nizam-intizam baxımından fərqlənirdi. İdman zamanı alətlərdə, dərs zamanı isə oxumaqda insana bacarığı ilə xüsusi enerji verərdi...

Məktəbi bitirdikdən sonra ikimizin də təyinatı Naxçıvan Muxtar Respublikasına, Şahbuz rayonunda yerləşən ön xətt hərbi hissəsinə verildi. O motoatıcı texnikanı yaxşı bildiyi üçün hərbi hissənin özündə saxlanıldı. Mən isə ön xətt taborunda xidmətə başladım. Həmin dövrlər ölkədə olan iqtisadi cəhətdən çətin vəziyyət orduya da sirayət edirdi. Amma fərəhlə bir şeyi qeyd edim ki, indiki ordumuzla o dövrdəki ordu müqayisə oluna bilməyəcək qədər güclüdür.

O zamanlarda xidmətin hər yerinin özünəməxsus çətinliyi vardı. Mən ön xətdən aşağı düşəndə Rəşadın yanında qalardım. Çünki aşağıda istirahət, hamam, camaşırxana və s. kimi həyati vacib şəraitlər daha yaxşı səviyyədə idi. Rəşad həmişə bu işlərdə mənə sevə-sevə kömək edirdi. Eləcə də digər kurs yoldaşlarından kim olsa fərq qoymaz, hər kəsə əlindən gələn bütün yaxşılıqları edərdi.

Özünəməxsus jestlər edərdi gözləmədiyimiz təqdirdə. Təsəvvür edin, bayram günlərində ailəli adamların yerinə özünü növbəyə yazdırar, onların həmin gün evə getmələrinə, bayramı ailələri ilə birlikdə keçirmələrinə şərait yaradardı.

Kursantlardan biri otağıma gəlib kapitan Sadıqovun məni çağırdığını bildirdi. Mən kursantla bərabər onun göstərdiyi otağa getdim. Qapını açıb içəri girdikdə bütün taqımın ayaq üstə məni gözlədiyini və partanın üzərində hədiyyə ilə tortun olduğunu gördüm. Rəşad da kursantların arasında dayanmışdı. Bu gün mənim ad günüm idi. Tortun şirinliyinə kursantların gülüşü, Rəşadın isə səmimiyyəti qatılmışdı. O ad günümü indi tez-tez xatırlayıram.

Rəşadın toyu 2006-cı ildə oldu. Həmin vaxt mən Gədəbəydə postda xidmət edirdim. Toy tarixində icazə alaraq postdan düşə bilmədiyim üçün 2 gün sonra Şəmkirə gəlib onu ailə qurması münasibətilə təbrik etmək istəmişdim. Rəşad əl çəkməyərək məni Şəmkir rayonunda yerləşən hərbi şəhərcikdəki evlərinə apardı. 1 otaqlı evdə valideynləri və əlavə qonaqları vardı. Məni öz ailəsinə çox səmimi təqdim etdi. Gördüyüm bu isti münasibət sayəsində darısqal "qaradok" evi mənə geniş bir saray təəssüratı bağışlamışdı.

**Gülnarə Məmmədova,**
*sinif yoldaşı*

# Laçın şəhəri, 2 nömrəli orta məktəb

Uşaqlıq xatirələri insan ömrünün daş kitabəsidir. Orda yazılanlar, yaşananlar heç vaxt unudulmur. Şirini də, acısı da sonradan böyük bir xatirəyə çevrilir. Bəzilərini xatırlayarkən üzümüz gülər, bəzilərini xatırlayarkən daxilən böyüyər insan. Rəşad sinif yoldaşım, geriyə baxanda bədbin xatırladığım Laçın xatirələrinin bir parçasıdır. Onunla eyni sinifdə oxuduq. 1-ci sinifdən 6-cı sinifə qədər “B” sinfi, 7-ci sinifdə isə yeni bölgü oldu, siniflər qarışdı və biz “V” sinfi adlandırıldıq. Elə o sinif kimi taleyimiz də sonradan qarışdı.

İkimiz də əlaçı idik. Lakin mən bir çox şeyləri ondan öyrənərdim. Rəşad şeiri, ədəbiyyatı sevər, qiraətdə öz həmyaşıdlarından fərqlənirdi. Özəl günlərdə məktəbin adından çıxışlar edər, şeirlər səsləndirərdi.

Rəşad həm də əlaçı olmaqla yanaşı, bizim sinif nümayəndəmiz (sinifkom) təyin olunmuşdu. Onun davranışları, özünü aparması, azyaşlı olmağına baxmayaraq, təmkinli rəftarı ilə bütün müəllim heyətində özünə qarşı diqqət yarada bilirdi. Onun haqqında danışarkən mübaliğəyə gərək duymuram. Çünki onu tanıyan hər kəs bunun yersiz olduğunu bilir.

Xarici dil dərsini iki qrupa bölünərək ayrı siniflərdə keçirdik. Zəng vurulanda oğlanlar onun dəftərini götürüb arxa partada köçürməyə başladılar. Həmin qrupda Rəşadla eyni partada əyləşirdik. Tərslikdən müəllim onu qaldırıb ev tapşırığını soruşdu. Rəşad isə utana-utana dəftərinin evdə qaldığını söylədi. Müəllim də Rəşadın qarşısına nöqtə qoydu. Növbəti dərs təqdim etməsə,

aşağı qiymət yazacağını bildirdi. Buna baxmayaraq, Rəşad yoldaşlarını satmadı. Amma məcburən danışdığı yalana görə yoldaşlarına əsəbləşmişdi.

Qarabağ döyüşləri başlamışdı. Lakin dərslər davam edirdi. Sinif yoldaşlarımız 6-cı dərsdən qaçmaq istəyirdilər. Mən, Rəşad və bir neçə yoldaş onlara qarşı çıxdıq. Müəllim ciddi idi, həm də yaxşı oxuyan şagirdlər üçün bu daha çox utandırıcı gəlirdi.

Bu hadisə 1992-ci ilin aprel ayının sonlarında baş vermişdi... Üstündən çox keçmədi ki, biz məcburən Laçından çıxmalı olduq. Rəşadla son ünsiyyətimiz isə 2006-cı ildə sosial şəbəkə vasitəsilə baş tutdu.

Həmin vaxt ailəsindən, uşaqlarından danışaraq mənə öz əvvəlki səmimiyyətini qoruyub saxladığını hiss etdirmişdi...

**Pərvin Nağıyeva,**
*ingilis dili müəllimi, iş yoldaşı*

## "Çujoy"

Tanışlığımız Heydər Əliyev adına Hərbi Liseydə baş tutmuşdu. Mən orada müəllimə işləyirdim. Görünə bildiyi qədər namuslu, alicənab insan idi. Orada Azərbaycanın digər regionlarından olan insanlara "çujoy" deyirdilər. Mən özüm şəkili olduğum üçün təbii ki, Naxçıvanda danışığımla seçilirdim. Söhbətimiz əsnasında mənə gülərək, "deyəsən, siz də çujoysunuz?" - dedi. Gülüşdük. Cavab verdim ki, demək olar, eləyəm.

- Narahat olmayın, Pərvin xanım. Başlanğıcda elə olur, sonra doğmalaşır. Buranın əhalisi mehriban və qayğıkeşdir – dedi mənə.
- Ümumilikdə, Rəşad Sadıqov xatirəmdə qayğıkeş, yardımsevər, ürəklərdə özünə yer edən bir insan kimi yadımda qalıb. Zabit olaraq dürüst və intizamlı idi. Hər kəsə yetişir, kiminə sözü, kiminə isə əməli ilə yardımçı olurdu. Elə ilk tanışlığımızda da onun sözü ilə desəm, özü də "çujoy" olsa da, mənə təsəlli olmağa, təskinlik verməyə çalışırdı. Ümumiyyətlə, hazırcavab, intellektual insan idi. Onunla müxtəlif mövzularda söhbət aparmaq olurdu.

**Şamil Fərzəliyev,**
*Sumqayıt PEŞ-in Aparıcı mühəndisi*

# Təsadüf olmayan təsadüf

Rəşadla Laçında sinif yoldaşı olmuşduq. Məcburi köçkün həyatından sonra ilk dəfə Şahbuzda yerləşən hərbi hissədə qarşılaşdıq. Tanış gəldi. Daha sonra isə gülüşündən əmin oldum ki, odur. Lakin hələ də yaxınlaşmağa tərəddüd edirdim. Bu anda bir əsgər gəlib baş leytenant Sadıqovu kiminsə çağırdığını bildirdi. Bu an əmin oldum ki, bu mənim sinif yoldaşım Rəşaddır. Salamlaşdım. Sən Rəşad deyilsən? - deyə soruşdum.

Təsdiqlədi. Ürəkləndim, məni tanıdınmı deyə sual verdim. Üzrxahlıq edib tanıya bilmədiyini bildirdi.

- Sən Yuxarı Laçından deyilsən?
- Bəli.
- Xanlar əminin oğlu!
- Düzdü.
- Hansı məktəbi oxumusan?
- Laçında 2 nömrəli məktəbi.
- Sinif yoldaşlarından kimin adını deyə bilərsən?

Bir neçə nəfəri sayıb mənim adıma gələndə tələsik sözünü kəsdim...

Elə dediyin Şamil mənəm. Duruxub bir anlıq göz-gözə baxdıq.

İkimiz də sevindik. Məni bərk-bərk qucaqlayıb, bağrına basdı. Bir az söhbətləşdik, köhnə günləri xatırladıq. Sevindik, üzüldük hətta kövrəldik də.

Təsadüfə bax. Laçından çıxandan sonra təqribən 10 il idi ki bir-birimizi görmürdük. Mən ali məktəbi bitirib qeyri-peşəkar zabit olaraq xidmətə başlamışdım. “Leytenant” rütbəsində Şahbuza təyinat almışdım.

Rəşadın xoş xatirələri çoxdur. Bir dəfə ehtiyatdan ön xətdə ərzaq, su və s. zəruri şeyləri aparırdıq. Maşınların hərəkəti təhlükəli olduğu üçün şəxsi heyətlə birlikdə dağa piyada qalxırdıq. Rəşadın postuna çatdıq. Ərzaqları təhvil verdik. Bir az dincəlib nəfəsimizi dərdikdən sonra şəxsi heyəti gizirə tapşırıb tabora yola saldım. Rəşadla görüşəndən sonra onun qonağı olmasam, rahat buraxmazdı. Bir xeyli söhbətləşdik, uşaqlıq, saf günlər hamısını xatırladıq. Laçınlı günlərə qayıtdıq bir neçə dəqiqəlik...

Naxçıvanın qışı sərt olur. Dağlara tez-tez duman gəlir. Dumanda ətraf görünmədiyi üçün irəliləmək çətin olur. Cığırlar bir-birinə bənzəyir. Yolu səhv salanda isə səs salmağın özü bir təhlükədir. Düşmən mövqelərinə yaxın yerdə olsan, necə deyərlər, işin bitdi. Artıq 2 saatdan çox vaxt keçmişdi ki, mən postdan çıxmışdım. Bu qədər vaxtda tabora çatmamaq artıq hansısa pis bir işin baş verməsinə işarə idi. Rəşad rabitə əlaqəsi ilə mənim çatmadığımı öyrənib narahat olmuşdu. Tabor komandirinə məruzə edərək azdığımı bildirmişdi.

Mən artıq azdığımı qəbul edib duman çəkilənə kimi gözləməyə qərar vermişdim. Dağda tək qəbir vardı. Həmin qəbir daşının yanında oturdum. Bir qədər gözlədikdən sonra adam səsləri eşitməyə başladım. Aşağı dərə boşluğundan tabordan bir neçə nəfər mənim axtarışıma çıxmışdı. Rəşad da yanında bir hərbi qulluqçu ilə postdan çıxıb məni axtarırdı. Xoşbəxtlikdən həmin gün Rəşad da, taborun şəxsi heyəti də vaxtında mənə çata bilmişdilər.

Rəşad hərbi məktəb oxumuş, peşəkar zabit idi. Mən isə qeyri - peşəkar idim. Postlarda hərəkət edərkən səngərlərin qırağı ilə gəzirdim. Buna görə də o, həmişə məni danlayırdı.

# XATİRƏLƏR

**Amid Əsədov** *(kapitan)*

Şəhid Rəşad Sadıqov mənim üçün qürur və vicdan deməkdir. Ondan vicdanlı olmağı, tabeliyində olanlara qarşı rəis kimi yox, insan kimi davranmağı öyrənmişəm. Rütbə və vəzifəyə sahib olmaqla yanaşı, insanlığını da qoruya bilirdi. Bu isə orduda, eləcə də digər peşələrdə barmaqla sayılacaq qədər insanlara xas olan bacarıqdır.

Onunla ilk tanışlığımız Ballıqayada xidmət edərkən baş tutmuşdu. Mən ön xətdə xidmət edirdim. Toplanış üçün aşağıya, hərbi hissənin özünə düşməli olmuşdum. Həm də yoxlama gəlmişdi. Xidməti sənədlərin yoxlanılması həyata keçirilirdi. Mənim sənədlərimdə bir neçə nöqsan aşkarlandı. Rəşad Sadıqov yanında olan zabitlərə tapşırdı ki, mənim sənədlərimdə olan çatışmazlıqları aradan qaldırsınlar. Məni isə sən postdan düşmüsən, istirahət et, şəxsi işlərin varsa, onunla məşğul ol, deyib arxayın saldı. Hər dəfəsində bu cür jestlər edər, postdan düşən hərbçilərə xüsusi diqqət yetirərdi.

**Nazəndə Məcidli** *(sinif yoldaşı)*

Rəşadla sinif yoldaşı olmuşuq. Onu çalışqan, olduqca tərbiyəli biri kimi tanıyırdım. Məncə o hamımıza gözəl örnək ola biləcək bir şagird idi. Laçın rayonunun ermənilər tərəfindən işğalından sonra əlaqəmiz itmişdi. Təsadüfə baxın ki, uzun illər sonra onu Naxçıvanda Bəhruz Kəngərli Muzeyində gördüm. Övladları ilə muzeyə gəlmişdi. Bələdçimiz məzuniyyətdə olduğu üçün muzey haqqında məlumatı mən verməli oldum. B.Kəngərlinin "Qaçqın-

lar" silsiləsindən çəkdiyi əsərlərinə baxıb duyğulandığını, övladlarına onların da belə bir vəziyyətdə öz doğma yurdlarını tərk etdiyini danışırdı. Birdən mən, "siz Rəşad Sadıqov deyilsiz?" – deyə soruşdum. Bəli, deyə cavab verdi. Mən çox duyğulandım. Uzun illər sonra Rəşadı görmüşdüm. Qaçqın "uşaqlar" üçün keçmiş sinif yoldaşını görmək, elini-obanı, uşaqlığını, yarımçıq qalan xatirələrini yada salmaqdır. O da sevinmişdi rastlaşdığımıza. Bir xeyli söhbət etdik, hal-əhval tutduq.

**Fərid İsmayılov** *(sinif yoldaşı)*

Rəşad sinif yoldaşım olmaqla yanaşı, həm də yüksək intellektə sahib insan idi. onun qibtə elədiyim daha bir xüsusiyyəti isə yaxşı əl qabiliyyətinin olması idi. Yadımdadır bir dəfə yeni il şənliyi üçün müxtəlif personajların maskaları lazım idi. Bir quşun maskasını nə qədər axtardıqsa tapa bilmədik ki, bilmədik. Hamımız çox narahat olmuşduq ki, səhnəciyimiz alınmayacaq. Səhəri gün Rəşad əlində həmin maska ilə sinfə daxil oldu. Dərsdən sonra evdə olanda özü kartondan düzəltmiş, rəngləri də tam düzgün seçib rəngləmişdi. Çox gözəl alınmışdı, sanki zavod istehsalı idi.

**Amil Məhərrəm oğlu,**
*xatırladan*

# Rəşadət ordenli Rəşad xatirələrdə

Əlinizdə tutduğunuz bu kitab ani qərarın nəticəsi olsa da, illərlə içimdə yığılan istəyin vulkanı idi. Ümidvaram ki, komandamızın məhsulunu səmimi hisslərlə sizə təqdim edə biləcəyik. Kitabı tərtib etmək qərarına gəldikdə hələ ailəsinin məlumatı yox idi. Bu məlumatı vermək üçün ciddi məsuliyyət tələb olunurdu. Ya alınmaz, ya çatdıra bilmərəm, hansısa problem çıxar və s. və ilaxır. Dəyərli dostlarla firkimizi bölüşəndə hər kəsdən böyük dəstək gördük. Rəşad Sadıqov haqqında ərsəyə gələn bu kitab-xatirələr toplusu onun ölməz ruhu qarşısında atılan çox, amma çox kiçik bir addımdır. Ölənlə ölmək olmur deyiblər. Lakin şəhidlər ölmür, onlar diridirlər. Diridirlər – demək bizimlə birlikdə yaşayırlar. Yaşayırlarsa demək varlar. Ruhumuzda, ağlımızda, qanımızda. Bir quşun nəğməsində, bir bulağın suyunda. Hər şəlalənin şırıltısında bir şəhid ruhu, hər dalğada bir şəhid harayı, hər göy gurultusunda bir şəhid nəfəsi var. Yağan hər yağış bir şəhid salamı gətirir göylərdən bizlərə. Salamı alana, dəyərini saxlayana...

Bütün səmimiyyətimi ortaya qoyaraq bu yola çıxdım. Çünki Rəşad kimi insandan ancaq səmimiyyətlə danışmaq olar. Səmimiyyətin yanına bir az insanlıq, bir az dürüstlük, bir az mərdlik, halallıq, cəsarət, fədakarlıq və s. müsbət dəyərləri, insani keyfiyyətləri əlavə edəndə bir Rəşad Sadıqov yaranır. Bu üzdən həmişə demişəm; hər insan Rəşad Sadıqov ola bilər. Eyni zamanda, hər adam Rəşad Sadıqov ola bilməz. Rəşad olmaq üçün yuxarıda saydığım xüsusiyyətləri bir adam özündə cəmləməlidir. Çünki bu in-

sani xüsusiyyətlərdir. Bunlara sahib olan hər kəs 1-ci kateqoriyaya aid ola bilər. Eyni zamanda isə hər insan Rəşad ola bilmir ona görə ki, bu qədər xüsusiyyəti hər kəs özündə cəmləyə bilmir.

Bizim onunla çox xatirələrimiz var. Lakin burada onun haqqında məndən daha çox dostları, tanışları, qohumları, iş yoldaşları, kursant və sinif yoldaşları, eləcə də tabeliyində olmuş kursantları söhbət açacaq, xatirələrini paylaşacaqlar.

"Qurani-Kərim"in əz-Zəriyət surəsinin 55-ci ayəsində buyurulur: "Sən xatırlat! Çünki xatırlatmaq möminlərə fayda verir". Müqəddəs kitabımızın bu ayəsindən ilhamlanaraq mən sadəcə xatırladanam. Onun nəsillərə örnək həyatından az da olsa, nəyisə çatdıra bilmişəmsə, nə xoş mənə. Aşağıda onunla bağlı bir neçə kiçik xatirələrimi də paylaşmağı özümə borc bilirəm. Hər bir halda, haqqınızı halal edin. Oxuduğunuz, tanıdığınız və tanıtdığınız üçün.

Döyüşə girdiyimiz ilk gündən silahını əlindən yerə qoymurdu. Dəbilqəsi başında, zirehli gödəkçəsi əynində idi. Döyüşarası fasilələrdə hər kəs dəbilqə və gödəkcəsini çıxarardı. Bu hərəkət təhlükəli olsa da, istirahət zamanı rahat dincəlmək üçün vacib idi. Onun isə bizim kimi etmədiyini görürdüm. Diqqətimi çəkirdi. Halbuki ona irad tutacaq kimsə yox idi. Ümumiyyətlə, xətri çox istənilirdi. Yaxınlaşıb sual verdim:

- "Rəis niyə bunları soyunmursuz? Kaskanı, bronjileti çıxardın, verin mənə saxlayım, ya da maşına qoyaq".

Cavabında: "Narahat olma, problem yoxdur. Belə yaxşıdı. Müharibədəyik ee, deyəsən. (yenə zarafatından qalmadı). Görürsən? Bizim şəxsi heyətin əksəriyyəti səfərbərliklə toplanan heyətdir. Onlar çıxarıb istirahət etsinlər. Siz narahat olmayın. Mənə belə yaxşıdır".

Bir az söhbətdən və kənardan apardığım müşahidələrə görə

belə qənaətə gəldim ki, o özü heç kəsə demədən bizim keşiyimizi çəkirdi.

Mütəmadi patrullarla söhbət edir, gecə-gündüz demədən ərazini nəzarətdə saxlayırdı. Hər addımbaşı təhlükəsizlik qaydalarını xatırladırdı.

Xidmət etdiyimiz hərbi hissə təlim hərbi hissəsi olduğundan müharibə vaxtı səfərbərliklə gələn heyəti biz qarşılayır, tamamlama məntəqələrinə və digər hərbi hissələrə yola salırdıq. Bu səbəbdən döyüşə bir neçə gün sonra - 12 oktyabr tarixində yola düşdük. Müharibə başladığı bu bir neçə gündə fikir etdiyini, gizlincə kədərləndiyini görməmək mümkün deyildi. Gün ərzində bəlkə beş, ya da on dəfə “rəis nə vaxt çıxırıq?”, “nə deyirlər?” və s. kimi suallarla müraciət edirdik. O da “mən də sizin kimi, burada oturmaqdan bezirəm, sizi başa düşürəm. Amma düşünün ki, mən Laçındanam. Məni daha çox sıxır döyüşdə ola bilməmək. Görünür rəhbərlik belə məsləhət bilir. Nə vaxt əmr gələr, onda da İnşallah gedərik” kimi sözlərlə bizə və özünə təskinlik verirdi.

Hərbi hissəmizin bir taboru və artilleriya divizionu isə döyüşlər başladığı gündən Murovdağ-Kəlbəcər istiqamətində döyüşlərə qatılmışdı. İlk şəhidimiz artilleriya divizionun əsgəri Yaqubzadə Yaqub Eldəniz oğlu oldu. 2 oktyabr 2020-ci ildə düşmənin açdığı artilleriya atəşi nəticəsində şəhidlik zirvəsinə yüksəldi.

Hərbi hissə növbətçisinə məlumat daxil olarkən tez polkovnik-leytenant R.Sadıqova məlumat verdim. Bu xəbəri demək də, eşitmək də ağır idi. Həmin vaxtı əvvəl görmədiyim bir hala büründü. Gözləri doldu. Dili əsə-əsə Allah rəhmət eləsin deyib üzün çevirdi və tribunaya tərəf addımladı...

Cəbrayıl rayonunun Çələbilər kəndində kiçik bir dialoqumuz da baş tutmuşdu:

“İnşallah çataq, sizə Laçında qonaqlıq verəcəm. Öz evimizdə, həyətimizdə. Yəqin ki, evimiz qalmayıb, amma meyvə ağaclarından nəsə taparıq. Yekə qoz ağacı var idi, əgər kəsmiyiblərsə...”

- Yoldaşlardan biri: Rəis, neçə gündü acıq, meyvəylə çətin doyaq – dedi.

O da hazırcavablığından qalmayaraq,

- Eybi yox qonşunun bağına da girərik - o vaxtı bu zarafata hamımız gülmüşdük.

Sonradan gördük ki, nə ev qalıb, nə də həyətdəki qoz ağacı. Uşaqlıq xatirələritək həyatı əlindən alınan yüz minlərlə insan kimi mənfur düşmənlər evi də, bağı da məhv etmişdi. Bizim Laçın qonaqlığımız baş tutmadı. Amma onun bizə söz verdiyi qonaqlığı Allah qatında qəbula yetişdi. Cənnətdə şəhidlər süfrəsində, canı və qanı qarşılığında...

Oktyabrın 22-si idi. Qubadlı rayonunun Muradxanlı kəndində yerləşən məktəb binasında yerləşmişdik. Ermənilər yaşayan evlərimizdən birindən bir kisə soğan tapmışdım. Soğan həvəskarı olaraq mənim üçün bu əsl sürpriz idi. Yoldaşlarla nahar yeməyinə hazırlaşırdıq. Plastik butulkalarda qaynayan su olan ocağın kənarında əyləşmişdik. Sadəcə tavanı və divarları qalmış bu yeri səhnəyə bənzər hissəsi olmasa, idman zalına da bənzətmək olardı.

Bir haşiyə çıxım ki, mənfur düşmən bu binanı söküb dağıdıb, ikinci mərtəbəsində cəmi-cümlətani 6 kiçik otağını saxlamışdı. Onun da 3-ü sinif, digərləri isə inzibati otaqlar idi. Rəis məni çağırdı. Komanda-qərargah maşınının yanında, tam təchizatı ilə dayanmışdı.

- Hazırlaş, yardım gətirən maşınla aşağı düşəcəksən. Bizim şəhidləri “morqda”, yaralılarımızı isə xəstəxanada yerbəyer etmək lazımdır. Qeydiyyatın aparарsan. Bəlkə, sənin üçün çətin olacaq. Amma biz bu işə səndən daha möhkəm psixologiyada adam

tapmadıq. Nə qədər çətin olsa da, öhdəsindən gələcəksən.

Açığı heç istəmirdim. Düşündüm ki, ora daha dəhşətlidir. Burada yoldaşlarım, dostlarım, silahdaşlarım var. Orada isə tək...

- Rəis, çox xahiş edirəm başqa birini göndərək? - dedim. Faydası olmadı. Artıq generala məruzə edilmiş, əmr verilmiş, razılıq alınmışdı. Bizə icra etmək düşürdü. (Əgər Allah qismət eləsə, morq haqqında orada gördüyüm dəhşətli hadisələr haqqında ayrıca kitab yazacağam).

Aşağı düşəcəyimizi eşidib hərə bir yandan kağız, nömrə verdi. Rəis də bir vərəq tapıb kiçik bir namə yazdı.

- Əgər imkan olsa, bunu bizimkilərə göndərərsən. Olmasa da, şəklini çək at. Qoy görsünlər, evə də zəng edib hər şeyin yaxşı olduğunu bildir. Amma mütləq bunun şəklini at ki, inansınlar.

O çətin və məhdud şəraitdə diqqətimi çəkən kiçik bir namədə küncdən yer edib qısaltma ilə zəhmət olmasa "Z.O" yazması idi. Adam nə qədər alicənab olsun ki, o şəraitdə də öz mədəniyyətini qoruyub saxlasın.

Beləcə, dünya gözü ilə son görüşümüz 22.10.2020-ci ildə Muradxanlı kəndində yerləşən məktəbin həyətində oldu. Və bir həftə sonra bu hadisələrin xatirələrə çevrildiyi tarix başladı...

## Rəşad Sadıqovun əziz Xatirəsinə!

Bilmişdi qəmgin könüllər özünə həmdəm səni,
Bəsləyir indi aləmi bərzəxdə zəmzəm səni.

Öyrəndim Vətən naminə içdiyim andı səndən,
28 Oktyabr bizə şəb-i hicrandı səndən.

O gün boş buraxmadın şəhidliyin taxtını sən,
Ağartdın qanınla Qarabağın qara baxtını sən.

Məhzundu Həkəri'nin suyu elə bil buz kəsib,
Getdiyin yol şəhadətdir bu hamıya olmaz nəsib.

O yola baş qoyanlar gedərlər rah-ı Hüseyndən,
Demək ki, sən də dərs aldın Kərbəla şahı Hüseyndən.

Təbəssümün ilə qərib qəlblərə ki toxundun sən,
Bu səbədən Lövh-ü Məhfuz'da şəhid oxundun sən.

Mübarəkdir Vətən uğrunda qurban qoçun, ana,
Baxacaq gözlərinə fəxarətlə Laçın, ana!

Səbəb o igiddir dəyəcək edən azad bizi,
Qanı ilə yazdı tarixə –"anacan"– Rəşad bizi.

Vətən oğlu, sən azadlığa qanınla qol çəkdin,
Yurduma Qarabağdan çiçəkli, güllü yol çəkdin.

Anacaq hər duada həmin yolu xatirəmiz,
Üzündə solmayan gülüşlə dolu xatirəmiz.

Gülmək sənə yaraşırdı cənnətdə gül, Şəhidim!
Qovuşdun Allaha sən, hicran bizə zül, Şəhidim!

Ey qəhrəman şəhid oğlu, üfüqə dik başını,
Üzülər görsə Nihadın üzündə göz yaşını.

Sən Vətən sevgisinin, cəsarətin yadigarı,
Ağlamaz igidliyin, rəşadətin yadigarı.

Daha qeyd edəcəkdik azad oldu Xocalımız,
Demək ki, qaldı cənnətə bizim də vüsalımız.

Vətən oğlu, bir zirvə ki bəxş etdi Xuda sənə,
Səmaya qalxan hər bir əl edəcək dua sənə.

İbrət var Vətən uğrunda tökdüyün qanda bizə,
Şəhidə ölü demə buyurdu Quran da bizə.

Hər noyabrda hamı yad edər Vətəndə səni.
Bir fəqir şeir ilə daim anacam mən də səni.

**Ahmet Turan (Vüqar Səbzəliyəv)**
***24 Dekabr 2020.***

## Ermənistan tərəfindən hərbi işğala məruz qalmış Azərbaycan əraziləri

Kərki (Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası) - 15.01.1990

Bağanis Ayrım (Qazax rayonu) - 24.03.1990

Xankəndi - 28.12.1991

Xocalı - 26.02.1992

Xeyrimli - (Qazax rayonu) - 08.03.1992

Aşağı Əskipara (Qazax rayonu) - 12.03.1992

Bərxudarlı (Qazax rayonu) - 27.04.1992

Sofulu (Qazax rayonu) - 27.04.1992

Şuşa - 08.05.1992

Qızılhacılı - (Qazax rayonu) 11.05.1992

Laçın - 18.05.1992

Yuxarı Əskipara - (Qazax rayonu) 08.06.1992

Xocavənd - 02.10.1992

Kəlbəcər - 02.04.1993

Ağdərə - 07.07.1993

Ağdam - 23.07.1993

Füzuli - 23.08.1993

Cəbrayıl - 23.08.1993

Qubadlı - 31.08.1993

Zəngilan - 29.10.1993

## Düşmən işğalından azad olunmuş şəhər, qəsəbə və kəndlərimizin siyahısı

**27 sentyabr 2020-ci il**

Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı kəndləri;

Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndləri;

Ağdərə və Murovdağ istiqamətlərində yüksəkliklər;

**3 oktyabr 2020-ci il**

Tərtər rayonunun Suqovuşan və Talış kəndləri;

Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy, Quycaq kəndləri;

Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi;

**4 oktyabr 2020-ci il**

Cəbrayıl şəhəri və rayonun Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Horovlu, Decal, Mahmudlu, Cəfərabad kəndləri;

**5 oktyabr 2020-ci il**

Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndləri

**9 oktyabr 2020-ci il**

Xocavənd rayonunun Hadrut qəsəbəsi və Sur kəndi;

Cəbrayıl rayonunun Qaracallı, Süleymanlı, Əfəndilər və Qışlaq kəndləri;

Füzuli rayonunun Yuxarı Güzlək, Gorazıllı kəndləri;

Tərtər rayonunun Çaylı kəndi;

**14 oktyabr 2020-ci il**

Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu kəndləri;

Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri;

**15 oktyabr 2020-ci il**

Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Çiraquz kəndləri;

Füzuli rayonunun Arış kəndi;

Cəbrayıl rayonunun Doşulu kəndi;

**16 oktyabr 2020-ci il**

Xocavənd rayonunun Xırmancıq, Ağbulaq, Axullu kəndləri

**17 oktyabr 2020-ci il**

Füzuli rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndləri və Füzuli şəhəri

**18 oktyabr 2020-ci il**

Xudafərin körpüsü üzərində Azərbaycan bayrağı qaldırıldı

**19 oktyabr 2020-ci il**

Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqulular, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri

**20 oktyabr 2020-ci il**

Zəngilan rayonunun Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhəri;

Füzuli rayonunun Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı kəndləri;

Cəbrayıl rayonunun Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli kəndləri;

Xocavənd rayonunun Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Noraşen), Çinarlı (Vəng) kəndləri;

**21 oktyabr 2020-ci il**

Zəngilan rayonunun Mincivan qəsəbəsi, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qırax Müşlan, Üdgün, Turabad, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Baharlı kəndləri;

Cəbrayıl rayonunun Balyand, Papı, Tulus, Hacılı, Tinli kəndləri;

Füzuli rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndləri

**22 oktyabr 2020-ci il**

Zəngilan rayonunun Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndləri və Ağbənd qəsəbəsi;

Cəbrayıl rayonunun Sirik, Şıxlar, Məstalıbəyli, Dərzili kəndləri;

Füzuli rayonunun Mollavəli, Yuxarı Rəfədinli, Aşağı Rəfədinli kəndləri

**23 oktyabr 2020-ci il**

Xocavənd rayonunun Dolanlar və Bünyadlı kəndləri;

Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı və Veysəlli kəndləri;

Zəngilan rayonunun Vənədli və Mirzəhəsənli kəndləri;

Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq kəndləri

**25-26 oktyabr 2020-ci il**

Zəngilan rayonunun Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd kəndləri;

Cəbrayıl rayonunun Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər kəndləri;

Qubadlı rayonunun Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan kəndləri və Qubadlı şəhəri

**28 oktyabr 2020-ci il**

Zəngilan rayonunun Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli kəndləri

Füzuli rayonunun Mandılı kəndi;

Cəbrayıl rayonunun Qazanzəmi, Xanağabulaq, Çullu, Quşçular, Qaraağac kəndləri;

Qubadlı rayonunun Qiyaslı, Əbilcə, Qılıcan kəndləri

**30 oktyabr 2020-ci il**

Cəbrayıl rayonunun Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı kəndləri;

Zəngilan rayonunun Aladin, Vejnəli kəndləri;

Qubadlı rayonunun Kavdadıq, Məmər, Mollalı kəndləri

**2 noyabr 2020-ci il**

Cəbrayıl rayonunun Çaprand, Hacı İsaqlı, Qoşabulaq kəndləri;

Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ kəndləri;

Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndləri

**4 noyabr 2020-ci il**

Cəbrayıl rayonunun Mirək, Kavdar kəndləri;

Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli kəndləri;

Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndləri

**7 noyabr 2020-ci il**

Füzuli rayonunun Yuxarı Veysəlli, Yuxarı Seyidəhmədli, Qorqan, Üçüncü Mahmudlu, Qacar, Divanalılar kəndləri;

Cəbrayıl rayonunun Yuxarı Məzrə, Yanarhac kəndləri;

Qubadlı rayonunun Qəzyan, Balasoltanlı, Mərdanlı kəndləri;

Zəngilan rayonunun Beşdəli kəndi;

Xocalı rayonunun Qarabulaq, Moşxmaat kəndləri;

Xocavənd rayonunun Ataqut, Tsakuri kəndləri

**8 noyabr 2020-ci il**

ŞUŞA şəhəri

**9 noyabr 2020-ci il**

Füzuli rayonunun Qobu Dilağarda, Yal Pirəhmədli, Yuxarı Yağlıvənd, Dilağarda, Seyid Mahmudlu, Ələsgərli, Aşağı Güzdək, Qovşatlı, Mirzəcamallı, Şəkərcik, Mərdinli, Şıxlı, Qaraməmmədli, Dövlətyarlı, Hacılı, Hüseynbəyli, Saracıq kəndləri;

Xocalı rayonunun Dəmirçilər, Çanaqçı, Mədətkənd, Sığnaq, Şuşakənd, Muxtar, Daşaltı kəndləri;

Xocavənd rayonunun Susanlıq, Domi, Tuğ, Akaku, Azıx, Mets Tağlar, Salakətin, Zoğalbulaq, Aragül, Tağavard, Böyük Tağavard, Zərdanaşen, Şəhər kəndləri;

Cəbrayıl rayonunun Hüseynalılar, Söyüdlü, Aşağı Sirik, Qalacıq, Mollahəsənli, Əsgərxanlı, Yuxarı Nüsüs, Aşıq Məlikli, Niftalılar, Qərər, Çələbilər kəndləri;

Qubadlı rayonunun Yuxarı Mollu, Aşağı Mollu, Xocik, Qaramanlı, Xəndək, Həmzəli, Mahrızlı, Hal, Ballıqaya, Ulaşlı, Tinli, Xocahan, Boyunəkər, Qaraqoyunlu, Çərəli kəndləri;

Zəngilan rayonunun Keçikli, Ördəkli, Sobu, Qaragöz, Isgəndərbəyli kəndləri, Bartaz qəsəbəsi;

Laçın rayonunun Güləbürd, Səfiyan, Türklər kəndləri.

**10 noyabr 2020-ci il**

Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatına əsasən, Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olunub. Tərəflər arasında Üçtərəfli bəyanat imzalanıb.

Bəyanata uyğun olaraq, 20 noyabr 2020-ci il Ağdam rayonu, 25 noyabr 2020-ci il Kəlbəcər rayonu, 1 dekabr 2020-ci ildə isə Laçın rayonu Azərbaycan Silahlı Qüvvələrinə təhvil verilib.

# Vətənə can, xalqa fəxarət

## (fotolar)


























QURU QOŞUNLARI


QURU QOŞUNLARI




SADIQOV






























SADIQOV


SADIQOV


QURU QOŞUNLARI




























AZ 10-BA-761








































HELLO KITTY








07.01.2015






41
YAŞ








SPIDER
















McDonald
Coffe












QƏRARGAH
2020























[redacted]-44-81 – Səbuhi qardaşım.

[redacted]-31-21 – Nihad oğlum.

Watçap – [redacted] 71-14-81 öz nömrəm.

Gülabirddəyik, Laçına 25 km qalıb. Hər şey əladır.

Qardaşıma de. Z.O.

Hər şey qaydasındadır. Problem yoxdur. Narahat olmayın.

Şəbəkə yoxdur!!!

Evə de


Xanlar
Həsənxan oğlu
Sadıqov
1953 2020
Ailəsindən xatirə
Rəşad
Xanlar oğlu
Sadıqov
1978 – 2020
Şəhidimiz
Vətən sağ olsun

**Hörmətli oxucu!**

**Şəhidimizin xatirəsini yaşatmaq, onu tanımaq və tanıtmaq üçün ərsəyə gələn bu kitab, hər hansı maddi vəsait əldə etmək üçün nəzərdə tutulmayıb.**

**Şəhidlə bağlı xatirəsi və ya hansısa əlavə məlumatı olan varsa, bizimlə əlaqə saxlamağını xahiş edirik.**

**Tel: 077/055 323-92-93**

**Elektron poçt: amilmuherrem92@gmail.com**

Çapa imzalanmışdır: 14.11.2025. Kağız formatı: 60x90 1/16.
Çap həcmi: 8,25  ç.v. Sifariş:  236. Sayı:  200

---

Kitab "ADİLOĞLU" nəşriyyatında
nəşrə hazırlanmış və ofset üsulu ilə çap edilmişdir.

Ünvan: Bakı şəh., Ə.Salamzadə küç, 9C
Tel.: (050) 593 27 77, (055) 339 75 77
Web: www.adiloglu.az
E-mail: adiloglu2000@gmail.com